www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu   Gündəlik qəzet   25-26 fevral 2017-ci il   Şənbə   № 43 (6657)   Qiymətı 60 qəpik

**Xəbər**

## Bakıda qadın satıcı kişi müştərini bıçaqladı

yazısı səh.2-də

**Gündəm**

### DTX iki Azərbaycan vətəndaşını casusluğa görə yaxaladı



Xarici xüsusi xidmət orqanları tərəfindən yazılı iltizamla məxfi əməkdaşlığa cəlb edilmiş iki şəxs hərbi sirləri əldə etmək istəyib

yazısı səh.2-də

### Sabah Xocalı yürüşü olacaq

yazısı səh.4-də

### Müdafiə naziri Talış kəndi istiqamətində döyüşə şəxsən komandanlıq edib

yazısı səh.11-də

*Elxan Şahinoğlu:*

### "Bütün xahiş və müraciətlərə baxmayaraq Lapşin işini sona çatdırmaq lazımdır"

yazısı səh.9-da

### Əli İnsanovun "ev dustaqlığı" ümidi də puç oldu

yazısı səh.5-də

### İran "qambiti" - Tehran vəziyyətdən çıxa biləcəkmi?

yazısı səh.4-də

### İşğalçının təhrikçi davranışının arxasındakı "Rusiya izi"

yazısı səh.11-də

### Milli Məclisdə müharibə çağırışları

yazısı səh.7-də

### Ləğv edilmiş MTN-in baş istintaqçısının məhkəmədə zərərçəkənlərə meydan oxumasının "sirri"

yazısı səh.10-da

### "Lotu Quli"nin yeznəsini mühakimə edən hakim işdən uzaqlaşdırıldı

yazısı səh.14-də

### Sığortası olmayan sürücülər MMX vasitəsi ilə cərimələnəcək

yazısı səh.14-də

# Azərbaycan zənginləri belə "ağlayır"

## "YA YENİDƏN NAZİR MÜAVİNİ OLARAM, YA DA ÖLKƏDƏN GEDƏRƏM" - MUSA PƏNAHOV HAQQINDA SENSASİON İDDİA

Ləğv edilən nazirliyin ikinci şəxsi Musa Pənahov korrupsiya yolu ilə əldə etdiyi varidatını qorumaq üçün əl-ayağa düşüb; o, moldovalı milyarder qudasının dəstəyi ilə Azərbaycanda vəzifə "almağa" çalışır; "Megapolis" klubu niyə satışa çıxarılıb...




yazısı səh.5-də

## "Bakını vurmağa İrəvanın cürəti çatmaz" - işğalçıya "soyuq duş" xəbərdarlığı

İrəvanın hərbi ritorikası ən əvvəl onun özü üçün təhlükəli hesab edilir; rusiyalı tanınmış ekspert erməniləri məyus etdi: "İsgəndər"lə asimmetrik zərbə sizi xilas etməyəcək"...

yazısı səh.8-də



*"Şöhrət" ordenli Abdolbari Goozal:*

### "İş adamı tək pul qazanmağı yox, həm də insanların rifahını düşünməlidir"

yazısı səh.3-də



### Erməni əsirliyində olan 83 yaşlı Xocalı sakini: "Dişlərimi kəlbətinlə sökdülər"

yazısı səh.6-da



*Mehriban Əliyeva:*

### "İndiyədək önəm verdiyim prinsiplərə bundan sonra da sadiq qalacağam"

yazısı səh.2-də

YENİ MÜSAVAT
N 43 (6657) 25 fevral 2017



## Prezidentə su təminatının yaxşılaşdırılmasına 16 milyon manat ayırdı

**Prezidenti İlham Əliyev əhalinin ekoloji cəhətdən təmiz su ilə təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

"APA-Economics"in məlumatına görə, sərəncamla Kür və Araz çaylarının sularından, habelə digər su mənbələrindən istifadə edən ölkə əhalisinin keyfiyyətli içməli su ilə təmin edilməsi məqsədi ilə 18 rayonun 64 min nəfərdən çox əhalisi olan 100 yaşayış məntəqəsində (siyahı əlavə olunur) modul tipli sutəmizləyici qurğuların quraşdırılması üçün 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə 16,0 (on altı) milyon manat ayrılıb.

## DTX iki Azərbaycan vətəndaşını casusluğa görə yaxaladı

### Xarici xüsusi xidmət orqanları tərəfindən yazılı iltizamla məxfi əməkdaşlığa cəlb edilmiş iki şəxs hərbi sirləri əldə etmək istəyib

**Dövlət Təhlükəsizliyi Xidmətində (DTX) aparılan cinayət işi üzrə əməliyyat-istintaq tədbirləri nəticəsində Azərbaycan vətəndaşları Əmiri Elşən Məcid oğlu və Babayev Elçin Tacir oğlunun casusluq formasında dövlətə xəyanət etmələrinə əsaslı şübhələr müəyyənləşib.**

DTX-in ictimai əlaqələr şöbəsindən APA-ya bildirilib ki, xarici ölkə ərazisində xarici xüsusi xidmət orqanı əməkdaşları tərəfindən yazılı iltizamla məxfi əməkdaşlığa cəlb edilmiş Elşən Əmirinin və Elçin Babayevin 2016-cı ilin yanvar ayından etibarən həmin orqan tərəfindən verilən tapşırıqlar əsasında Azərbaycanın hüquq-mühafizə orqanlarının məxfi heyətinə daxil olan əməkdaşları, Müdafiə Nazirliyinin hərbi hissələri, onların döyüş potensialı, eləcə də strateji əhəmiyyətli dövlət obyektləri barəsində məlumatlar toplanılması istiqamətində fəaliyyətləri kompleks əməliyyat nəzarətinə götürülərək sənədləşdirilib.

2017-ci il fevralın 20-də Dövlət Təhlükəsizliyi Xidməti, Dövlət Gömrük Komitəsi və Dövlət Sərhəd Xidməti tərəfindən birgə həyata keçirilmiş tədbirlər nəticəsində Elşən Əmiri və Elçin Babayev casusluq fəaliyyətlərinin nəticəsi olan maddi sübutlarla şübhəli şəxs qismində tutularaq cinayətin qarşısı alınıb. Elşən Əmiri və Elçin Babayev Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət) maddəsi ilə cinayət məsuliyyətinə cəlb edilib, məhkəmənin qərarı ilə barələrində həbs qətimkan tədbiri seçilib.

Hazırda istintaq-əməliyyat tədbirləri davam etdirilir.

## Qadın satıcı 43 yaşlı müştərini bıçaqladı

**Paytaxtın Xəzər rayonunda qadın satıcı müştərinin sağlamlığına qənim kəsilib. ARB TV xəbər verir ki, qanlı hadisə Binə qəsəbəsi Südçülük sovxozu adlanan ərazidə yerləşən marketdə baş verib.**

Mağazaya müştəri kimi daxil olan 43 yaşlı Yalçın Ağaverdiyevlə satıcı qadın arasında mübahisə düşüb. Elə bu zaman satıcı kişini bıçaqlayıb. Yaralı xəstəxanaya çatdırılıb və dərhal əməliyyat olunub. Həkimlər Yalçın Ağaverdiyevin qarın nahiyyəsində bıçaq xəsarətinin olduğunu bildiriblər.

Faktla əlaqədar cinayət işi başlanıb, araşdırmalar aparılır.

## Başsağlığı

**Rauf Arifoğlu və "Yeni Müsavat" qəzetinin kollektivi Kamil Tağısoya və Tağıyevlər ailəsinə atası Ənvər Tağıyevin vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.**


## "Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.


# "İndiyədək önəm verdiyim prinsiplərə bundan sonra da sadiq qalacağam" - Mehriban Əliyeva



**Azərbaycanın birinci vitse-prezidenti Mehriban Əliyeva yeni vəzifəyə təyin olunması münasibətilə onu təbrik edənlərə öz təşəkkürünü bildirib.**

APA-nın məlumatına görə, M.Əliyeva qeyd edib ki, bu təyinat onun üçün çox böyük etimad və şərəfdir.

"Əziz dostlar! Bu günlər mən cənab Prezidentin Sərəncamı ilə Azərbaycanın Birinci vitse-prezidenti təyin olunmağım münasibətilə həm ölkəmin müxtəlif guşələrindən, həm də xaricdən çox sayda təbrik alıram. Yeni vəzifədə mənə dəstək dolu sözlərinizi, diləklərinizi dərin minnətdarlıq hissi ilə oxuyuram. Bu təyinat mənim üçün çox böyük etimad və şərəfdir. Çünki bütün fəaliyyətim boyu mənim üçün əsas prioritet ölkəmizin və xalqımızın maraqları olub.

İndiyədək Heydər Əliyev Fondu bir çox əhəmiyyətli layihələr reallaşdırıb və mən bununla fəxr edirəm. Bu illər ərzində biz Azərbaycanın həyatında baş verən müsbət dəyişikliklərə öz töhfəmizi verməyi bacarmışıq. Amma yeni təyinat qarşıma artıq yeni hədəflər qoyur, yeni imkanlar açır. Mən gələcəyə nikbin baxıram. Çünki bu gün Azərbaycan qüdrətli, özünü təsdiq etmiş bir dövlətdir. Bizim inkişaf üçün böyük potensialımız, ən əsası isə insan kapitalımız vardır.

Əziz dostlar, mən ölkəmə, sizə, bizim yaradıcılıq enerjimizə inanıram. Ölkəmizin gələcəyi, onun inkişafı və firavanlığı üçün bizim hər birimiz cavabdehik. Bu gün sizin səmimi diləkləriniz və dəstəyiniz mənim üçün çox vacibdir. Mən bu dəstəyi hər zaman, fəaliyyətimin bütün mərhələlərində hiss etmişəm. Hesab edirəm ki, əsl minnətdarlıq özünü yalnız sözdə deyil, konkret əməldə göstərməlidir. Sizi əmin edirəm ki, indiyədək önəm verdiyim prinsiplərə - öz Vətənimə və xalqıma xidmət, mərhəmət və ədalət, tolerantlıq və ümumbəşəri dəyərlərə bundan sonra da sadiq qalacağam. Hər birinizə uğurlar, cansağlığı və firavanlıq, doğma Vətənimizə isə sülh və inkişaf arzulayıram!"

## Mehman Hüseynova ölkədən kənara çıxmaq qadağan olundu

**Suraxanı rayon məhkəməsi Nəsimi rayon Polis İdarəsinin rəisi Musa Musayevin bloggerMehman Hüseynova qarşı verdiyi şikayətə baxıb.**

Şikayət artıq məhkəmə icraatına götürülüb və Mehman Hüseynov ittiham olunan şəxs kimi işə cəlb olunub. Bloggerdən ölkəni tərk etməmək barədə iltizam alınıb.

Məhkəmə prosesi fevralın 27-də davam etdiriləcək.

Xatırladaq ki, bu ilin fevral ayının 10-da Suraxanı rayon məhkəməsində hakim Ceyhun Qədimovun sədrliyi ilə Daxili İşlər Nazirliyinin Mehman Hüseynova qarşı xüsusi ittiham qaydasında verdiyi iddia ərizəsi əsasında hazırlıq iclası keçirilib.

İddia ərizəsi Nəsimi Rayon Polis İdarəsinin rəisi Musa Musayevin adından təqdim olunub. Mehman Hüseynov Cinayət Məcəlləsinin 147.2 maddəsi ilə (Ağır və ya xüsusilə ağır cinayətdə ittiham etməklə böhtan atma) ittiham olunur.

Lakin məhkəmə qeyri-adi əngəllə qarşılaşıb. Belə ki, prosesdə blogerin şəxsiyyətini rəsmi şəkildə müəyyən etmək mümkün olmayıb. Blogger bəyan edib ki, onun sənədləri artıq 3 ildir ki, polis tərəfindən müsadirə olunduğuna görə o, özünün Mehman Hüseynov olduğunu təsdiq edə bilmir:

"Məhkəmə ilk öncə mənim Mehman Hüseynov olduğumu sübut etsin və sənədlərimi polisdən götürsün".

Qeyd edək ki, Mehman Hüseynov bu yaxınlarda həbs edildiyi zaman polis tərəfindən işgəncələrə məruz qaldığını və təhqir edildiyini bəyan etmişdi.

**Mehman Hüseynovun polisi ittiham etdiyi faktları şərh edən daxili işlər naziri Ehsan Zahidov onun dediklərini böhtan və yalan adlandıraraq polis əməkdaşlarının buna görə onu məhkəməyə verəcəyini söyləmişdi.**



## Avropadakı azərbaycanlı mühacirlər Xocalı faciəsi ilə bağlı aksiya keçirəcək

### Kənan Hacıəkbəroğlu: "Ermənistan səfirliyinin qarşısında aksiya olacaq"

**Avropada yaşayan azərbaycanlı mühacirlərin tez-tez insan haqları və digər məsələlərlə bağlı keçirdikləri aksiyaların şahidi oluruq. Müxtəlif ölkələrin mərkəzlərində mühacirlərimiz öz ölkələrində baş verənlərlə bağlı haqq səslərini ucaldırlar.**

Fevralın 25-dən 26-na keçən gecə Xocalı soyqırımının növbəti ildönümüdür. Hələ ki indiyə qədər əsrin faciəsi hesab edilən bu dəhşətli hadisə ilə bağlı Avropadakı mühacirlərimizin etiraz səslərini dünyaya eşitdirdiklərinin şahidi olmamışıq. Onların bu soyqırımla bağlı planları ilə maraqlandıq.

Xocalı faciəsinin şahidlərindən İsveçdə yaşayan mühacirimiz Kənan Hacıəkbəroğlu "Yeni Müsavat"a bunları dedi: "Mən o facie zamanı Xocalı camaatını o əzab-əziyyətin içərisindən çıxaranlardan olmuşam. Artıq beş ildir Avropada yaşayıram. Avropaya gəldiyim gündən Xocalı faciəsi və siyasi məhbuslarla bağlı keçirilən tədbirlərin hər birində imkan daxilində iştirak etməyə çalışmışam. Stokholmda fevralın 25-də Ermənistan səfirliyinin qarşısında aksiya olacaq. Oradayam və bu aksiyada iştirak edəcəm. Stokholmda eyni zamanda, Xocalı hadisələri ilə bağlı elmi konfrans olacaq və orada da iştirak edəcəm. Azərbaycanlı, bu hadisələrin iştirakçısı kimi belə tədbirlərdə iştirak etmək birbaşa borcumdur. Təbii ki, Avropada yaşayan azərbaycanlıların mitinqlərində özümüz deyib, özümüz eşidirik. İsveçdə Azərbaycan və İsveç dillərində jurnal buraxacağıq. "Mənim haqqım" adında bir jurnaldır. Orada Azərbaycanla bağlı problemlər dərc olunacaq, dünyaya yayılacaq. Hər bir aksiyanın keçirilməsinin tərəfdarıyam. Amma bizlər Avropa Parlamentinə girməliyik. Üzümü azərbaycanlı diasporlara tutub deyirəm ki, biz siyasiləşək, bizim Avropa Parlamentinə girməyimiz vacibdir".

**Müsavatın Avropa Koordinasiya Mərkəzi Xocalı faciəsi ilə bağlı bəyanat yayıb. Bəyanatda soyqırımla bağlı keçirilən və planlaşdırılan tədbirlər barədə məlumat verilib:** "Avropanın bir neçə ölkəsində, müxtəlif zamanlarda Xocalı ilə bağlı tədbirlər və aksiyalar keçirilib. "Qarabağa Azadlıq" , "Xocalını Unutma" , "Erməni terroruna SON" , Dilqəm Əsgərov və Şahbaz Quliyevin azadlığa çıxması ilə bağlı şüarlar səslendirilib. Aşağıda hansı ölkələrdə və hansı tarixlərdə baş tutmuş aksiyalarımız qeyd olunub: 17 Fevral - Almaniyanın Maiz şəhərində, 18 Fevral - Almaniyada Köln şəhərində, 20 Fevral - Litvada aksiyalar keçirilib. 26 Fevralda isə Hollandiya və Avropada yaşayan müsavatçılar Haaqa'da olan Xocalı abidəsini ziyarət edəcəklər. Daha sonra Amsterdamda yerləşən DAM meydanında sərgiyə qatılacaqlar".

❑ **Cavanşir ABBASLI**



## "Təhlükəsizliyimizə əsas təhdid terrorizm və radikalizmdir"

**"Terrorizm və radikalizm təhlükəsizliyimizə əsas təhdiddir". APA-nın məlumatına görə, bunu ATƏT Parlament Assambleyasının vitse-prezidenti Azay Quliyev qurumun qış sessiyası çərçivəsində Siyasi və təhlükəsizlik məsələlər üzrə komitəsində çıxışı zamanı deyib.**

Radikalizm meyllərinin güclənməsinin səbəblərinə toxunan A.Quliyev təhsilin aşağı səviyyədə olmasını, iqtisadi çətinlikləri və ayrı-ayrı qruplar tərəfindən müxtəlif millət nümayəndələrindən sui-istifadə hallarını sadalayıb. O bildirib ki, terrorizm və radikalizmə qarşı mübarizədə yeganə üsul özünə qapanmış vətəndaşların biliklərinin artırılmasıdır.

A.Quliyev qeyd edib ki, ATƏT PA çərçivəsində qarşılıqlı hörmətə əsaslanan dialoq bundan sonra sistematik şəkildə aparılmalıdır.



## İsa Qəmbər və Arif Hacılı prokurorluğa çağırılıb

**Müsavat Partiyasının başqanı Arif Hacılı və partiyanın sabiq başqanı, Milli Strateji Düşüncə Mərkəzinin sədri İsa Qəmbər Baş Prokurorluğunun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsinə çağırılıb.**

Bu barədə "Report"a partiya başqanı Arif Hacılı məlumat verib.

A.Hacılı bildirib ki, onlar Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsinə şahid qismində dindirilmək üçün çağırılıblar: "Müharizədə olan azərbaycanlılarla bağlı məsələdir. Rəsmi dəvət gəldiyinə görə fevralın 27-də Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsində olacağıq".

YENİ MÜSAVAT
N 43 (6657) 25 fevral 2017

"Xəyal Adası" müasir yaşayış kompleksində "Azərsun Holdinq"in Müşahidə Şurasının sədri Abdolbari Goozala "Şöhrət" ordeninin təqdim edilməsi mərasimi keçirilib.

# "Qolundakı saatı sataraq evinə çörək alan adamlar tanıyırdım"

## Abdolbari Goozalə "Şöhrət" ordeni təqdim edildi; **Əli Həsənov:** "O, elə insanlardandır ki, heç vaxt ölməyəcəyi kimi çalışır, hər gün öləcəyi kimi yaşayır"











Musavat.com xəbər verir ki, mərasimdə Azərbaycan prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov, Türkiyənin qida, kənd təsərrüfatı və heyvandarlıq naziri Faruk Çelik, Azərbaycanın kənd təsərrüfatı naziri Heydər Əsədov da qatılıb.

Təqdimat mərasimindən öncə "Azərsun Holdinq"in bu günə qədər keçdiyi yolu, şirkətin Azərbaycan iqtisadiyyatına töhfəsini əks etdirən film nümayiş olunub. Daha sonra Azərbaycan prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov Abdolbari Goozala "Şöhrət" ordenini təqdim edib.

Təqdimat mərasimində çıxış edən Ə.Həsənov bildirib ki, "Azərsun Holdinq" sadəcə milli şirkət deyil, bu şirkət sərhədləri adlamış, kifayət qədər yer tutaraq xarici bazarlarda rəqabətə davamlığı ilə bölgənin transmilli şirkətlərindən biri kimi tanınır:

"Təkcə onu qeyd etmək kifayət edir ki, holdinqin Azərbaycanda yaratdığı infrastruktur, istehsalat sahələri, logistika beynəlxalq standartlara cavab verir. Şirkətlər qrupunda, eləcə də kənd təsərrüfatı sahəsində on minlərlə vətəndaşımız çalışır ki, onlar yüksək əmək haqları ilə təmin olunublar. Holdinqin istehsal etdiyi məhsullar nəinki daxili tələbatı ödəyir, eyni zamanda milli brend kimi bölgənin müxtəlif ölkələrində, xarici bazarlarda tanınır. Bu da Azərbaycana kifayət qədər valyuta ehtiyatları gətirir.

Ə. Həsənov çıxışı zamanı deyib ki, "Azərsun Holdinq" ölkəmizə yeni istehsalat mədəniyyəti gətirib: "Azərsun Holdinq" ölkənin qida təhlükəsizliyinin təmin olunmasında müstəsna yer tutur. Holdinqin uğurlarının təməlində dayanan əsas amil odur ki, Abdolbari Goozal bura ən zəhmətkeş insanları toplaya bilib. Bu şirkət daim ümumilli lideri Heydər Əliyevin qayğısında olub. Bu gün isə ölkə başçısı İlham Əliyevin diqqət və qayğısı ilə əhatə olunur. Çünki, bu şirkət Azərbaycan üçün çalışır, Azərbaycan vətəndaşına iş yeri verir, keyfiyyətli ərzaqla təmin edir. Bu gün Azərbaycanda "Azərsun" kimi çoxsaylı şirkətlər var ki, dövlətin bütün sahələr üzrə qayğısı ilə əhatə olunub. Prezidentimiz ölkəmizdə qurulan, yeni istehsal, iqtisadi münasibətlərin təməlini təşkil edən şirkətlərə kifayət qədər yüksək qiymət verir. Onların nümunəsi kimi bu gün həmin şirkətlərdən birinin rəhbəri, Azərbaycan zəhmətkeşlərinin kifayət qədər yaxşı tanıdığı şəxsə cənab Prezidentin təltif etdiyi "Şöhrət ordeni"ni təqdim edilir. Fəlsəfəsini "Qurani Kərim"dən götürən belə bir deyim var. Böyük Mövlanə bu kəlamı çox istifadə edirdi, "Hər gün öləcəyin kimi yaşa, amma heç zaman ölmədiyin kimi çalış. Abdolbari Goozal bu cür insanlardandır ki, heç vaxt ölməyəcəyi kimi çalışır, hər gün öləcəyi kimi yaşayır".

Çıxışına xatirələri ilə başlayan Abdolbari Goozal Azərbaycana gəlişindən, "Azərsun"un yaradılmasından, qarşılaşılan çətinliklər və əldə olunan uğurlar barədə danışıb və Heydər Əliyev tərəfindən göstərilən dəstəkdən danışıb.

### "Az ye, həmişə ye"

Daha sonra o, iş adamının tək pul qazanmağı yox, həm də insanların rifahını düşünməli olduğunu söyləyib: "İstehsal etdiyimiz çay artıq bir dünya brendi olub. Biz iş görərkən heç vaxt pulu, qazancı düşünməmişik. Bizdə bir məşhur misal var: böyük tikə boğazda qalar. Başqa sözlə, az ye, həmişə ye. Həmin dövrdə Azərbaycanda insanların maddi durumu çox pis idi. Qolundakı saatı sataraq evinə çörək alan adamları tanıyırdım. Çox şükür, o çətinliklərin öhdəsindən gəldik. Bu gün isə mənə prezident İlham Əliyevin verdiyi "Şörhət" ordeni təqdim edilir. Ölkə başçısının bu mükafatı onu göstərir ki, biz həqiqətən də çalışmışıq və çalışırıq. Bu mükafat mənə bir daha onu göstərdi ki, çəkilən zəhmət qiymətsiz qalmır. Mən ölkə başçısına öz dərin minnətdarlığımı bildirirəm".

**Daha sonra tədbirdə Türkiyənin qida, kənd təsərrüfatı və heyvandarlıq naziri Faruk Çelik çıxış edib, iki qardaş ölkə arasında mövcud olan münasibətlərdən danışıb və Abdolbari Goozalı təltif edilməsi münasibəti ilə təbrik edib.**

❑ **Məhəmməd TÜRKMƏN**
❑ **Fotolar müəllifindir**

# Hərbi ekspertdən və politoloqdan müharibə xəbərdarlığı

## Son günlər cəbhə xəttində gərginliyin artması nədən xəbər verir?

**Ermənistanın son bir həftədir cəbhə xəttində vəziyyəti gərginləşdirməsi müşahidə olunur. Xəbər verildiyi kimi, Azərbaycanın müdafiə naziri Zakir Həsənov və baş qərargah rəisi Nəcməddin Sadıqov cəbhə xəttinə gediblər. Hətta Zakir Həsənovun iki gün öncə Talış kəndi istiqamətində döyüşə şəxsən komandanlıq etdiyi bildirilir. Müdafiə Nazirliyi Zakir Həsənovun və baş qərargah rəisi Nəcməddin Sadıqovun təmas xəttində sürətlə artan eskalasiya ilə bağlı olaraq cəbhə bölgəsinə səfəri ilə bağlı məlumat yayıb.**





**Hərbi ekspert Üzeyir Cəfərov** hesab edir ki, son günlər Ermənistan ordusunun aktivləşməsi, Ermənistan rəhbərliyinin ritorikasının daha da sərtləşməsi işğalçı ölkənin yeni müharibə planın olmasından xəbər verir: "Ermənistan tərəfi itirdikləri mövqeləri geri qaytaracaqları ilə bağlı tez-tez bəyanatlar da səsləndirirlər. Son günlər cəbhə xəttində baş verənlər o anlama gəlir ki, erməni tərəfi qüvvə toplayıb yaxın zamanlarda Azərbaycan Silahlı Qüvvələrinin üzərinə növbəti həmlələri, basqıları həyata keçirməyə hazırlaşır. Ermənistanın yaxın zamanda müharibəyə hazırlaşır.

Müdafiə Nazirliyinin cəbhədən verdiyi xəbərlərdən də aydın olur ki, Ermənistan silahlı qüvvələri snayper tüfənglərindən və iriçaplı pulemyotlardan, hətta qumbaraatanlardan istifadə etməklə atəşkəs rejimini mütəmadi pozurlar. Ermənistanda yaxınlaşmaqda olan parlament seçkiləri və digər məsələlərlə əlaqədar çox böyük gərginlik müşahidə olunur. Apreldə keçiriləcək seçkilərdə qələbə qazanmaq üçün Serj Sərksiyan hakimiyyəti mümkün olan və olmayan variantlardan istifadə edir. Sərkisyan hesab edir ki, keçənilki aprel uğursuzluğunun əvəzini çıxmaqla seçicilər arasında nüfuzunu qaldıra və partiyasına uğur qazandıra bilər. Onun bir neçə gün öncə Müdafiə Nazirliyində səsləndirdiyi fikirlər də adi deyildi. İndi onun yeganə ümid yeri özünün Prezident Administrasiyasının keçmiş rəhbəri Vigen Sarkisyandır ki, onu müdafiə naziri vəzifəsinə təyin edib. Yeni müdafiə naziri də özünü göstərmək üçün hərbi əməliyyatlara başlamaq fikrinə düşə bilər. Həm buna görə, həm də artan əsgər ölümlərindən diqqəti yayındırmaq üçün müdafiə naziri də müharibənin başlamasında maraqlı ola bilər. Bütün bu və digər amilləri nəzərə alaraq Ermənistanın istənilən an cəbhədə vəziyyəti gərginləşdirə bilməsini diqqətdə saxlamalıyıq. Əgər Serj Sərksiyanın partiyası seçkidə parlamentdə üstünlüyə nail olmasalar, 2016-cı ilin aprel ayında cəbhə bölgəsində yaşanan gərginlikdən daha ağır və şiddətli gərginlik olacaq. Ermənistan prezidentinin verdiyi açıqlamaları da bunu deməyə əsas verir. O, öz çıxışında bildirmişdi ki, bu dəfə insan tələfatı çox olacaq, biz buna hazırlaşmalıyıq. Hətta Azərbaycanı təxribata çəkmək üçün öz ağlına uyğun ifadələrdən də istifadə etmişdi. Diqqət edirsinizə, Sərkisyanın bu bəyanatlarından sonra cəbhə xəttində gərginlik artıb və Ermənistan ordusunun cəbhəboyu aktivləşməsi barədə xəbərlər gəlməkdədir".

**Hərbi ekspert vurğuladı ki, yaranmış vəziyyətdə Azərbaycan son dərəcə diqqətli və ehtiyatlı olmalıdır:** "Azərbaycanın üzərinə böyük vəzifə düşür. Azərbaycan ordusu son dərəcə ayıq-sayıq, hər an ola biləcək hərbi əməliyyatlara, erməni təxribatlarına tutarlı cavab verməyə hazır olmalıdır. Ermənilərin davranışlarını izlədikdə aprel ayında cəbhə bölgəsində vəziyyətin gərginləşməsini proqnozlaşdıra bilərik. Ermənilər sakitləşmək istəmir, təxribatlar törədir. Erməni öz həyasızlığından əl çəkmir. Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini təmin etmək üzərimizə düşən ən ağır vəzifədir. Ermənilər isə çalışır ki, bu məsələ maksimum uzansın və öz mənfur məqsədlərinə nail olsunlar".

**Politoloq Qabil Hüseynli** də hesab edir ki, ermənilər Rusiyanın müəyyən təlimat və taktiki hazırlıqlarının köməyi ilə aprel savaşının qisasını ala biləcəklərini güman edirlər: "Ermənistan bölgədə vəziyyəti məhz buna görə gərginləşdirir. Müdafiə naziri Vigen Sərkisyanın "İsgəndər" açıqlaması Azərbaycana qarşı şantaj və psixoloji təzyiq xarakteri daşıyırdı. Artıq bir neçə gündür cəbhədə vəziyyətin gərgin olduğunu söyləyə bilərik. Bunun əsas səbəbkarı isə Ermənistandır. Ermənilər hazırda olduqca təhrikçi mövqedədirlər. Bütün bu addımlar Azərbaycan ordusunu cavab vermək məcburiyyəti qarşısında qoya bilər. Cəbhədə hər an lokal xarakterli toqquşma yarana bilər. Ermənilər unutmamalıdır ki, hərbi toqquşmalar başlasa, Ermənistan ordusu bu dəfə diz çökəcək və işğalda saxladıqları Azərbaycan ərazilərinin daha böyük hissəsini bu dəfə itirməli olacaqlar".

❑ **Etibar SEYİDAĞA**




# Sabah Xocalı yürüşü olacaq

## Faciənin 25-ci ildönümündə daha hansı tədbirlər keçiriləcək?

**Sabah Xocalı faciəsinin 25 ili tamam olur. Hər il olduğu kimi bu il də Xocalı qurbanlarının xatirəsi müxtəlif tədbirlərlə yad ediləcək. Soyqırım həqiqətlərinin dünyaya çatdırılması üçün müxtəlif addımlar atılacaq. Artıq bir neçə gündür ki, ölkədə və dünyanın bir çox dövlətlərində Xocalı tədbirlərinə başlanılıb. Məlumata görə, prezident İlham Əliyevin başçılığı ilə fevralın 26-da “Ana fəryadı” abidəsi önünə yürüş ediləcək. Bütün dövlət müəssisələri bu yürüşdə iştirakı gözlənilir.**

Bəs, müxtəlif dövlət və mədəniyyət qurumları, siyasi partiyalar 26 fevralda hansı tədbirlər keçirəcəklər?

Qeyd edək ki, bu günlərdə, 24-26 fevral tarixlərində “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi tərəfindən Xocalı faciəsinin 25 illiyinə həsr edilmiş “Xocalı-gözlərdə donan tarix” adlı foto sərgisi keçirilir. İçərişəhərdə - Qoşa qala qapılarının yaxınlığındakı meydanda, açıq səma altında təşkil olunacaq “Xocalı-gözlərdə donmuş tarix” adlı foto sərgidə faciəni yaşamış insanların portretləri nümayiş olunur.

Bundan əlavə, fevralın 26-da R.Behbudov adına Dövlət Mahnı Teatrında Bakı Uşaq Teatrının nəzdində fəaliyyət göstərən rusdilli uşaqlardan ibarət “Günay” Uşaq Studiyasının ifasında Xocalı faciəsinə həsr olunmuş “Xocalı” tamaşası nümayiş olunacaq. Teatrdan bildirilib ki, faciə qurbanlarının xatirəsinə həsr olunmuş, maarifləndirmə, təbliğat xarakteri daşıyan tamaşaya giriş sərbəstdir.

Fevralın 26-da həmçinin, Xocalı soyqırımının 25-ci ildönümü ilə əlaqədar “Azərbaycan Hava Yolları”-na məxsus aviareyslərdə bu qanlı qırğına həsr olunan videoçarx nümayiş etdiriləcək. Aksiya AZƏRTAC-la birgə layihəsi əsasında həyata keçiriləcək.

“Azərbaycan Hava Yolları” QSC-nin mətbuat xidmətindən musavat.com-a daxil olan məlumata görə, videoçarx ingilis dilində “Azərbaycan Hava Yolları”na məxsus “overhead” tipli monitorlarla təchiz olunan bütün təyyarələrin uçuşları zamanı nümayiş etdiriləcək. Aksiyanın məqsədi AZAL-a məxsus təyyarələrdən istifadə edən əcnəbi vətəndaşları Xocalı soyqırımı haqqında məlumatlandırmaqdır.

Həmçinin Bakı Metropoliteni QSC Metropoliten İşçiləri Həmkarlar Komitəsi ilə birgə Xocalı faciəsinin 25-ci ildönümü ilə bağlı tədbirlər planı hazırlayıb.

Siyasi partiyalara gəlincə, fevralın 26-da Yeni Azərbaycan Partiyasının yürüşü gözlənilir. Bunu YAP-ın icra katibinin müavini, deputat Siyavuş Novruzov “Yeni Müsavat”a açıqlamasında bildirib. Onun sözlərinə görə, yürüş fevralın 26-da keçiriləcək. Saatı tam dəqiqliklə elan olunacaq. Kim istəsə, bu yürüşdə iştirak edə bilər.

Siyavuş Novruzov qeyd edib ki, ölkə başçısının və dövlətin digər vəzifəli şəxslərinin də Xocalı abidəsini ziyarət etməsi gözlənilir.

**Müxalif düşərgəyə gəlincə, əksər partiyalar fevralın 26-da saat 12:00-da “Ana fəryadı” abidəsini ziyarət edəcəklər. Partiyaların birgə yürüşü də istisna deyil.**

❑ **Hazırladı: Nərgiz LİFTİYEVA**

# İran “qambiti” - Tehran vəziyyətdən çıxa biləcəkmi?

**İranın ərəblər yaşayan Əhvaz bölgəsində bir həftə davam edən etiraz aksiyaları səngisə də, qonşu ölkədəki narahatlıqlar qalmaqdadır. Bir sıra ekspertlər bu arada Güney Azərbaycanda 4 milli fəalla Ana dili günündə ümumilikdə 45 illik həbs cəzasının verilməsini də Tehranın ölkə daxilindəki etnik qrupların gözünü qorxutmaq cəhdi sayırlar.**

Ancaq müşahidələr və təcrübə göstərir ki, daxildə cəza tədbirlərinin ağırlaşdırılması heç də gözlənilən effekti vermir. Elə bu günlərdə Ərdəbil küçələrində yeni həbs edilən yerli fəal Həbib Sasaniyanın şəkilləri və “Həbib Sasaniyan azad edilsin” şüarları asılıb. Güney Azərbaycandan olan millət vəkillərinin parlamentdə milli haqların bərpasını, xüsusən də ana dilində təhsil hüququnu tələb etməsi də İran hakimiyyətini rahatsız edir. Ərəblərin üsyan qaldırması şəraitində Azərbaycan toplumun da etirazlara başlaması İran dövləti üçün yaxşı perspektiv vəd etmir. Üstəlik, etnik kürdlərin də hərəkətə keçməsi arzuolunmaz situasiya yarada bilər. Lakin Tehranın narahatlığına təkcə bu kimi amillər səbəb deyil. ABŞ və İsraildən gələn hədələr, ərəb ölkələrinin iştirakı ilə İran əleyhinə koalisiyanın yaradılması İranın qayğılarını artırır. Bu arada Türkiyə və İran arasında gərginliklərin artması da müşahidə edilir. İki ölkənin diplomatları arasında söz müharibəsi Türkiyə və İranın regionda nüfuz uğrunda mübarizə apardığının göstəricisi hesab edilir.

“İran bizim mühüm qonşumuzdur. Biz İranla həmişə dialoq aparmışıq. Lakin bu o demək deyil ki, biz İranın regionda nüfuzunu artırmaq səylərinə əhəmiyyət verməyəcəyik” deyə, **Türkiyə prezidentinin sözçüsü İbrahim Kalin** bildirib. (Amerikanın səsi) O, mətbuat konfransı zamanı iki ölkə arasında üstüörtülü şəkildə təhdidlərə nümunə olacaq bir şəkildə İranın ali dini rəhbəri Ayətullah Əli Xameneyinin əsas müşavirlərindən biri olan Əli Əkbər Vilayətinin açıqlamalarına cavab verib. Vilayəti deyib ki, Türkiyə əsgərləri İraq və Suriyadan çıxmalıdır, ya da “onları oradan çıxaracaqlar”.

Bu arada **İran İnqilab Keşikçiləri Korpusunun “Sepah” Quru Qüvvələrinin komandanı Məhəmməd Pakpur** ölkənin şimal-şərq bölgəsində keçirdikləri üç günlük “Pəyambər-i əzəm” hərbi təlimlərdən və onun nəticələrindən danışıb. “İslam respublikası düşmənlərinə sarsıdıcı cavab verməyə tam hazırdır. Hesab edirəm ki, düşmənlərimiz bizi təhdid etmək fikrindən daşınmalı, bunu başlarından çıxarmalıdır. Onlar bilməlidir ki, bizim təhlükəsizliyimizə qarşı atacaqları hər hansı bir addım qarşısında hərbi qüvvələrimizdən çox dağıdıcı və sarsıdıcı cavab alacaqlar”-o, deyib.

*Müsəlman qonşumuz ətrafında və daxilində nə baş verir?*



**Arzu Nağıyev:** “İndiki situasiyada etnik məsələlərin qabardılması İrana xeyir vermir”



**Zəlimxan Məmmədli:** “Bu proseslərin sonu ABŞ-Türkiyə münasibətlərinin vəziyyətindən asılı olacaq”

**Politoloq Arzu Nağıyev** “Yeni Müsavat”a bildirdi ki, hər bir dövlətin zəif bəndindən istifadə etmək bir çox dövlətlərin xüsusi xidmət orqanlarına xas olan metodlardandır: “Məlumdur ki, İranın ərəblər yaşayan bölgələrində neft yataqları da var, ərəblər də mütəmadi olaraq ekoloji problemləri qabartmaqla, etnik qrup olaraq neftdən daha çox yararlanmaq istəklərini bildirirlər. Son vaxtlar bu bölgələrdə havanın, su hövzələrinin çirklənməsi, İraq və Türkiyənin onların suyunun kəsməsi məsələsi də problem kimi hakimiyyətdə olan islahatçılar tərəfindən qabardılır. Təbii ki, bu proseslərdən də siyasi məqsədlərlə istifadə etməyə çalışan qüvvələr, xarici dövlətlər də var. Məlumdur ki, İran Suriya məsələsində Rusiya ilə koalisiya yaratmağa çalışdı və bir müddət yaxınlaşma oldu. İran nəyin bahasına olursa-olsun, Suriyada şiələrin, daha doğrusu, Əsədin hakimiyyətdə qalmasına çalışır, bununla da Türkiyə və bir sıra qərb dövlətlərinə qarşı gedir”. Ekspertə görə, Türkiyə və İsrailin yaxınlaşması da İranı narahat etməyə bilməz: “Türkiyə NATO-unun üzvüdür və heç vaxt İranla eyni müstəvidə iştirak etməyəcək. Bununla yanaşı, İranın ərəb dünyasında iki düşməni varsa, bunlardan biri Səudiyyə, digəri Qətərdir. Hər iki ölkə də Türkiyə ilə çox yaxın münasibətləri ilə seçilir. Üstəlik, ortada ”kürd kartı” var. Nə qədər inkar etsələr də, PKK-nın əsas qolları İran ərazisində də var”.

**A.Nağıyev bildirdi ki, Trampın İranla bağlı son bəyanatı regionda proseslərin hansı məcraya yönələcəyindən xəbər verir:** “İranın ”Amerikanın məhv olması”, “İsrailin yer üzündən silinməsi” kimi təhlükəli bəyanatlarla çıxış etməsi yaxşı heç nə vəd etmir. İran düşünürdü ki, Rusiya ilə yaxınlığı Trampın Rusiyaya loyal münasibət sərgiləməsindən asılı olacaq. Bu isə baş vermədi. Nüvə layihələrində Rusiya ilə birgə olsalar da, İran ehtiyatla davranır. İran tarixi ənənələri olan bir dövlətdir və demək olar ki, siyasi məsələlərdə çox təmkinli və ardıcıl siyasət aparır”.

**Politoloq qeyd etdi ki, indiki situasiyada etnik məsələlərin qabardılması İrana xeyir vermədiyi üçün bu proseslərin qarşısı alınacaq və hətta lazım olsa, kompromisə də gedəcək:** “Bundan başqa, son məlumatlara görə, ərəblər yaşayan ərazilərdə artıq valilik idarəsində bir neçə məmur vəzifəsindən azad edilib”.

**“Borçalı” Cəmiyyətinin sədri Zəlimxan Məmmədli** isə bildirdi ki, İran teokratik rejim olaraq dünyəvi dövlət modelinə uyuşmayan özünəməxsusluq sərgiləməkdədir: “Siyasi islam kimi istifadə etdiyi ideologiya bölücüdür və bir çox region dövlətləri, o cümlədən Avropa və ABŞ-ın maraqlarına uyğun deyil. İran bu və ya digər səbəblərdən qorxulu dövlət imicindədir və uzun müddətdir əsas gücləri düşündürən bir məkandır. İran eyni zamanda digər millətləri istismar maşınıdır. Böyük Orta Şərq projesində İran arzuolunmaz və destruktiv bir xarakterdə təqdim olunur. İranın Suriya, İraq və digər region ölkələrində tutduğu mövqe əsas güc mərkəzlərinin məmafeyinə uyğun görünmür, həm də türkiyə üçün təhdid mənbəyidir. Son zamanlar İran-Türkiyə münasibətlərində zaman-zaman qabaran gərginlik də deməyə əsas verir ki, İranın dini siyasi alət kimi istifadə etməsi haqda iddia irəli sürək. İran uzun müddət embarqolara məruz qalıb. Tramp administrasiyası bu siyasətin sərtləşəciyinə işarə edir”. **Z.Məmmədli Güney Azərbaycan və ümumən İrandakı Azərbaycan toplumunun taleyindən də bəhs etdi:** “Unudulmamalıdır ki, İranda 30 milyondan çox təməl haqları təmin olunmamış Azərbaycan türkü və digər millətlərin nümayəndələri var. Gözləniləndir ki, İrana təsir rıçaqlarından biri kimi əzilən etnik kimliklərin haqlarının tanınması prosesinə stimul verilsin. Bir müddət öncə İran parlamentində Türk Fraksiyasının yaranması milli hərəkatın nəticəsi idisə, bu faktor ciddi beynəlxalq dəstək qazana bilər. Artıq parlamentdə ana dili, türk dilində təhsil məsələsinin gündəmə gəlməsi dediklərimə təsdiqdir. Bu mərhələnin dinc, demokratik qaydada liberallaşma şüarlarının qabarması və bunun artan xətt üzrə davam etməsi mümkün görünür. Bu proseslərdə millətimizin iradəsinin daha uğurlu sonuca getməsi Türkiyənin bu prosesdə mövqeyindən və ABŞ-Türkiyə münasibətlərinin vəziyyətindən asılı olacaq”. **Proseslərə Bakının hansı reaksiyanı verəcəyinə gəldikdə, Z.Məmmədli qeyd etdi ki, Azərbaycan Respublikasının açıq müstəvidə bu proseslərə müdaxilə imkanlarını görmür:** “Azərbaycanda indiki statik vəziyyətin qorunmasını labüd hesab edirəm. Azərbaycan indiki zamanda bu prosesdə dolayı formada - dostlarının əli ilə iştirak edə bilər. Ölkəmizin açıq müstəvidə prosesə müdaxilə etməsi bizi ciddi təhdidlərlə üz-üzə qoya bilər ki, yaxın, aqressiv qonşularımız bu fürsətdən yararlana və zərbəni bizim üzərimizə yönəldə bilər”.

❑ **Cavid TURAN**

YENİ MÜSAVAT
N 43 (6657) 25 fevral 2017

# Azərbaycan zənginləri belə "ağlayır"

**Ləğv edilən Nəqliyyat Nazirliyinin sabiq birinci müavini Musa Pənahov ölkəni tərk edə bilər. Musavat.com-a bu barədə məlumat verən mənbə iddia edir ki, sabiq nazir müavini Musa Pənahov Nəqliyyat, Rabitə v.ə Yüksək Texnologiyalar naziri Ramin Quluzadəyə müavin təyin edilməyəcəyi təqdirdə Azərbaycanı tərk edəcək. O, bu haqda yaxın ətrafına deyib. M.Pənahov hətta gedəcəyi ölkəni də müəyyən edib. Bu, onun qudasının da keçmiş prezidenti olduğu Moldovadır.**




## "Ya yenidən nazir müavini olaram, ya da ölkədən gedərəm" - Musa Pənahov haqqında SENSASİON İDDİA

Ləğv edilən nazirliyin ikinci şəxsi Musa Pənahov korrupsiya yolu ilə əldə etdiyi varidatını qorumaq üçün əl-ayağa düşüb; o, moldovalı milyarder qudasının dəstəyi ilə Azərbaycanda vəzifə "almağa" çalışır; "Megapolis" klubu niyə satışa çıxarılıb...

Mövzuya keçmədən öncə qısa bir xatırlatma edək. Sabiq nazir müavini Musa Pənahov bir neçə il öncə 1 milyardlıq sərvətə malik Moldova eks-prezidenti Vladimir Voroninin qızını öz nəvəsinə izdivac etmişdi.

Sabiq nazir müavininin oğlu Fuad Pənahovun Moldovanın ən zəngin adamı, eks-prezidentin oğlu Oleq Voroninin yeganə övladı ilə necə tanış olmasına da qısa nəzər salaq. "İnfotag" və "Publika" portallarına istinadən Rusiya qəzetləri yazır ki, gənclər 3 il öncə Fransanın elitar kurort zonası olan Laciverd sahillərdə tanış olublar. Moldovanın eks-prezidentinin nəvəsi Katerina Voronina atasının 1 milyard dollarlıq sərvətinin yeganə varisi hesab edilir. O, Kişinyovda kollec bitirib, daha sonra təhsilini davam etdirmək üçün xaricə gedib.

İzdivac baş tutduqdan sonra isə M.Pənahov boş oturmayıb və Azərbaycanda olan külli miqdarda sərvətini Moldovaya köçürməyə başlayıb.

M.Pənahov moldovalı qudası ilə birgə demək olar ki, bu ölkədə bütün biznes sahələrində mövcuddurlar.

Sabiq nazir müavini haqqında ən maraqlı iddia isə budur ki, o, yarandığı gündən bu yana 15 ildir yüksək post tutduğu Nəqliyyat Nazirliyinin ləğvini, dolayısı ilə nazir müavini vəzifəsini itirməsini həzm edə bilmir. Belə ki, iki nazirliyin birləşməsindən sonra yaradılan Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyində də nazir müavini olmaq arzusundadır. Pənahov bunun üçün bütün əlaqələrini işə salıb, hətta qudasından da yardım istəyib. M.Pənahov digər tərəfdən isə nazir müavini olma şansının aşağı olduğunu hesablayaraq biznesini də ölkədən çıxarır.

Hətta bu gün paytaxtın ən məşhur klublarından olan və yaxşı gəlir verən "Megapolis" klubunu da satışa çıxarıb. Düzdür, bu satış "elanı" gizli saxlanılır, lakin oğul Pənahov bu barədə imkanlı dostlarına təklif edib.

Bundan əlavə tikinti sektorunda böyük tenderlər "udan" oğul Pənahov bu tenderlərdən qazandığı milyonların bir qismini xaricə çıxarmağa müvəffəq olsa da bir hissəsini Azərbaycanda investisiya kimi istifadə edib. İndi isə Pənahovlar ailəsinin əsas qayəsi bu şirkətləri tez bir zamanda sataraq nağd pula çevirməkdir. Heç şübhəsiz ki, satışdan əldə olunacaq həmin vəsait isə hansısa xarici ölkələrdə yeni investisiyalar, ortaqlıqlar üçün istifadə olunacaq.

**Hər halda, bunu zaman göstərəcək. İndi isə görünən budur ki, vəzifə itkisi sabiq nazir müavinini yaxşıca əl-ayağa salıb...**

**❑ Musavat.com**



## Əli İnsanovun "ev dustaqlığı" ümidi də puç oldu

### Rizvan Talıbov: "Bəzi qruplar ondan hakimiyyət üçün təhlükə mənbəyi yaradıb"

**Fevralın 23-də həbsdə olan sabiq səhiyyə naziri Əli İnsanovun Qaradağ Rayon Məhkəməsində keçirilən prosesində sabiq dövlət məmuru həbsdə saxlanılıb. Sabiq nazirin ev dustaqlığına buraxılması ilə bağlı vəkilləri Toğrul Babayev və Ağaveyis Şahverdinin vəsatətinə baxılıb. İnsanov özü məhkəməyə gəlməyib.**

Keçmiş nazirin vəkilləri məhkəmədə çıxış edərkən prezident İlham Əliyevin fevralın 10-da imzaladığı sərəncama istinad edərək İnsanovun həbsdə saxlanılmasının əsassız olduğunu qeyd ediblər: "Prezidentin sərəncamında böyük ictimai təhlükə törətməyən və az ağır cinayətdə ittiham olunan şəxslər barəsində əksər hallarda həbs-qətimkan tədbirinin seçilməməsi nəzərdə tutulur. Əli İnsanovun törətmədiyi, amma əsassız və qanunsuz olaraq təqsirləndirildiyi son əməllər də həmin kateqoriyaya aiddir. Buna görə də Əli onun barəsində həbs qətimkan tədbirinin ev dustaqlığı ilə əvəz olunmalıdır", - deyə vəkillər vəsatətlərini əsaslandırarkən bildiriblər.

Vaxtilə İnsanovun Hüquqlarını Müdafiə Komitəsinin rəhbəri olmuş Qərbi Azərbaycana Qayıdış Birliyinin sədri Rizvan Talıbov ehtiyac olduğu bir vaxtda onun müdafiəsi ilə bağlı komitənin yaradıldığını söylədi: "O vaxt onunla heç bir əlaqəm yox idi. Öz təşəbbüsümlə Müdafiə Komitəsi yaratdım, onu müdafiə etdim. Sonradan bu komitəyə başqaları da qoşuldu. Komitənin işini qurub, o istiqamətdə geniş fəaliyyət göstərdim. Sonunda bu fəaliyyət həbsimlə nəticələndi. Hazırda İnsanovun kifayət qədər imkanları var və vəkilləri ilə görüşə bilir. İndi onun özündən təşəbbüs gəlmədilir ki, Müdafiə Komitəsi olsun. Yaxınlarda Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev onu müdafiə etdiyi barədə rəsmi bəyanat verdi. Amma sonradan bu fəaliyyət də görünmədi. İnsanov təşəbbüsü olmadığına görə düşünürəm ki, bu işlər həllini tapmır. Təbii ki, Müdafiə Komitəsinin olmaması onun işinə mənfilik gətirir. İnsanovun fikirlərini bilə bilmərik, görünür onun da bəzi fikirləri var. İstənilən halda İnsanovun Hüquqlarını Müdafiə Komitəsinin olması onun üçün müsbət olardı. Açığı, indiki şəraitdə Əli İnsanovun azadlığa çıxma perspektivlərini çox aşağı görürəm. Ona qarşı olanlara münasibətim neqatividr. 70 yaşında olan bir şəxsin 11 il cəza çəkəndən sonra əlavə cinayət maddələri ilə ittiham olunması humanizmdən kənar bir hərəkətdir. Cəmiyyətə məlumdur ki, bu sifarişli bir işdir. Biz də mövqeyimizi bildirdik ki, bu iş quramadır. Onu dövlət və cəmiyyət üçün təhlükəli hesab etmirəm. Sadəcə ondan bəzi qruplar hakimiyyət üçün təhlükə mənbəyi yaradıblar. Bu da onun azadlığa çıxmasının qarşısını alan əsas amillərdən biridir".

R.Talıbov hər bir məhbusun azadlığa tez çıxmaq istədiyinin olduğunu da qeyd etdi: "Həbsdə olan hər bir insan üçün bir gün belə tez azadlığa çıxmaq onun üçün bir şans, ümiddir. Məhbus yalnız bunu arzulayır. Ola bilər ki, İnsanov azadlığa buraxılacağına inanmadığına görə hər hansı bir addım atmır. Əgər azadlığa çıxma şansı olsaydı, hesab edirəm ki, zəruri addımlarını atardı".

Müsahibimiz sabiq nazirin həmyerliləri tərəfindən müdafiəsiz qalmasına da münasibət sərgilədi: "Burada bir neçə obyektiv və subyektiv səbəb var. İnsanov həbs edildiyi 2005-ci ilin oktyabrından 2010-cu ilə qədər onun Hüquqlarını Müdafiə Komitəsinin sədri olmuşam. Bu illər ərzində çoxsaylı müşahidələr aparmışam. Həqiqətən Qərbi Azərbaycandan olan şəxslər arasında İnsanovun həbsinə müsbət yanaşanlar da olub, bunu pisləyənlər də. Amma üzə çıxmaq istəməyiblər, çəkiniblər. Mənim həbsim də onların çəkinmələrinə bir stimul verdi. Ancaq əgər İnsanov və onun yaxınları onu müdafiə edən şəxsə dəyər versəydilər, bu gün onun müdafiəsinə çoxsaylı insanlar, ziyalılar qalxardı. Lakin bu dəyərin olmaması onları bu hərəkətlərindən çəkindirir".

**Qeyd edək ki, sabiq səhiyyə naziri Əli İnsanov 2005-ci ilin oktyabrında dövlət çevrilişinə cəhd ittihamı ilə həbs olunub. 11 il azadlıqdan məhrum edilən sabiq nazirin həbs müddəti başa çatsa da, ona qarşı yeni ittiham irəli sürülüb. Ə.İnsanov barəsində açılan yeni cinayət işində keçmiş nazir cəzaçəkmə müəssisəsinin əməkdaşını döyməkdə, otağında psixotrop tərkibli dərman saxlamaqda təqsirli hesab edilir.**

**❑ Cavanşir ABBASLI**

## Naxçıvan Konstitusiyasına dəyişiklik və vitse-prezident müəmması

### Nə Azərbaycan, nə də Naxçıvan Konstitusiyasında MR Ali Məclis sədri vəzifəsinin vitse-prezidenti səlahiyyəti verilməsi haqda hansısa düzəliş olmayıb

**Xəbər verdiyimiz kimi, fevralın 23-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin beşinci sessiyası keçirilib. Sessiyanın gündəliyinə bir sıra cari məsələlərlə yanaşı, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi daxil olub.**




APA-nın məlumatına görə, V.Talıbov Ali Məclisdə çıxışı zamanı deyib ki, 2016-cı il sentyabrın 26-da keçirilən referendumla Azərbaycan Konstitusiyasında dəyişikliklərə uyğun olaraq Naxçıvan MR Konstitusiyasında da dəyişikliklər edilməsi üçün qanun layihəsi hazırlanıb.

Qeyd edək ki, dəyişikliklə Konstitusiyanın Naxçıvan Muxtar Respublikasında vətəndaşların seçki hüququnu tənzimləyən 8-ci maddəsi yeni redaksiyada verilərək adından və mətnindən məhdudlaşdırıcı ifadələr çıxarılıb, maddənin strukturu konstitusiya normalarına uyğunlaşdırılıb. Konstitusiyaya təklif olunan dəyişikliklərdən biri də gənclərin dövlət quruculuğunun bütün təbəqələrinə iştirakına şəraitin yaradılması ilə bağlıdır. Belə ki, konstitusiyanın 15-ci, 29-cu və 41-ci maddələrinə edilən dəyişikliklərə əsasən, 18 yaşı tamam olmuş, seçkilərdə iştirak hüququ olan hər bir şəxs dövlət orqanlarında təmsil oluna biləcək. Təklif olunan dəyişikliklərdə deputatların məsuliyyətinin artırılması məsələsi də öz əksini tapıb. Konstitusiyanın 43-cü maddəsinin III hissəsinə təklif edilən dəyişiklik isə texniki xarakter daşıyır. "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası qanunu oxunub və səsə qoyularaq qəbul edilib.

Xatırladaq ki, Naxçıvan MR Ali Məclisinin sessiyası Azərbaycanda son iki gündə əsas xəbər olaraq paylaşılıb. Məsələ ondadır ki, bir sıra internet mediasında V.Talıbovun vitse-prezidenti təyin olunacağı və bu təyinatın Ali Məclisin sessiyasında elan ediləcəyi bildirilirdi. Bu xəbərlərdə V.Talıbovun Naxçıvan MR Ali Məclisinin sədri kimi vitse-spiker postunu tutduğu və son referendumdan sonra onun postunun avtomatik olaraq vitse-prezident postuna çevrildiyi qeyd olunurdu.

Ancaq məsələ ondadır ki, nə Azərbaycan, nə də Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında Naxçıvan MR Ali Məclisinin sədri vəzifəsinin Azərbaycanın vitse-prezidenti postu olması haqda hansısa düzəliş olmayıb. Yəni faktiki olaraq bu dəyişiklik ortada yoxdur. Yeri gəlmişkən, virtualaz.org saytı Naxçıvan Muxtar Respublikası Konstitusiyasına dəyişikliklər və əlavələr edilməsinin hüquqi prosedurunu araşdırıb. Naxçıvan MR Konstitusiyası yerli Ali Məclisdə azı 35 səs çoxluğu ilə qəbul edildikdən sonra təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilir. Bu zaman nəzərə almaq lazımdır ki, Naxçıvan Konstitusiyasına dəyişikliklər və əlavələr haqqında təklif muxtar respublikanın Ali Məclisində 2 dəfə səsə qoyulur. İkinci səsvermə birinci səsvermədən 3 ay sonra keçirilir. Üçüncü mərhələdə Naxçıvan Konstitusiyasına dəyişikliklər və əlavələr haqqında Konstitusiya qanunları həm birinci, həm də ikinci səsvermədən sonra müvafiq tutulmuş qaydada, Naxçıvan Ali Məclisinin sədrinə imzalamaq üçün təqdim olunur. Bu zaman nəzərə alınır ki, əlavə və dəyişikliklər Naxçıvan Konstitusiyasının əsas mətninə zidd olmamalıdır.

**Ancaq bu, yalnız təşəbbüs Naxçıvan MR Ali Məclisindən gəldikdə belə olur. Ekspertlərə görə, Azərbaycan Respublikası Konstitusiyasına edilən dəyişikliklərlə bağlı referendum ölkə üzrə keçirildiyi üçün onun nəticələri Naxçıvana da şamil edilir və bu səbəbdən də Muxtar Respublikanın qanunvericilik bazasının dəyişikliyi təsdiqləməsi vacibdir. Beləliklə, son dəyişikliklər isə 26 sentyabr 2016-cı ildə Azərbaycanda keçirilmiş referendum nəticəsində Konstitusiyada edilmiş dəyişikliklərin Naxçıvan MR-da təsdiq olunması ilə bağlı hüquqi prosedur olub.**

**❑ KƏNAN**

YENİ MÜSAVAT
N 43 (6657) 25 fevral 2017

# "Dişlərimi kəlbətinlə sökdülər"

## Erməni əsirliyində olan 83 yaşlı Xocalı sakininin başına gələn dəhşətlər...



**Azərbaycan tarixinə qanla yazılmış 26 fevral tarixi bizim üçün bir faciə olsa da, o günü gözləri ilə görən, yaşayan insanlar üçün öz həyatlarının ən qara səhifəsidir. Elə insanlardan biri də Xocalı sakini, 83 yaşlı Cəmil Məmmədovdur. Bakının Novxanı kəndində, qaçqın yataqxanasında 80 yaşlı həyat yoldaşı ilə birlikdə yaşayan Cəmil babanı burada hər kəs tanıyır, başına gələnləri də bilirlər. Xocalı şahidlərini axtardığımızı biləndə bizi onun mənzilinə yönləndirdilər. Qapını saç-saqqalı ağarmış, hündürboylu, nur üzlü bir qoca açdı. Jurnalist olduğumuzu biləndə səmimi şəkildə evinə dəvət etsə də, danışmaq istəmədiyini bildirdi: "Danışmaq mənim üçün çox ağırdır. Hər dəfə o hadisələri danışanda sanki yenidən yaşayıram. Yaşlı adamam, artıq əsəblərim buna dözmür. Bir həftə təzyiqim qalxır, halım pisləşir".**

Başına gələnləri nəql etmək istəməsə də, söhbətimizin davamı gəlib o hadisələrin üstünə çıxdı.

**"Bakıdan bizə ümid verməsəydilər...."**

Cəmil baba dedi ki, o vaxt nəinki Xocalıda, bütün Qarabağ bölgəsində tanınmış bir usta olub, sənətinin sorağına başqa rayonlardan da gəlib onu ev tikməyə aparırmışlar. Yay-qış demədən işləyirmiş. Öz əli ilə tikdiyi iki mərtəbəli evinə o dövrün ən zəngin adamları həsəd aparırmış. Ta ki, o qanlı gecəyə qədər...

Cəmil baba deyir ki, nə isə pis hadisələrin olduğunu duyurmuşlar, digər rayonlar alınanda bir gün növbənin Xocalıya çatacağını bilirmişlər. Lakin yenə də ümidlə mərkəzdən yardım gələcəyini gözləyir, evlərini, torpaqlarını atıb çıxmaq istəmirmişlər.

"Heç vaxt inanmırdıq ki, Xocalıya erməni girər. Ancaq o vaxtın dövlət başçıları bizi aldadırdılar ümid verirdilər, özləri isə "stol davası" edirdilər. O vaxt indiki kimi dövlət yox idi. Biz torpaq dərdi çəkirdik, onlar vəzifə dərdi. Biz nə bileydik ki, bu reallıq deyil, politikadır. İndiki dövlət başçısı olsa idi, torpaqlarımızın bir tikəsi də düşmənə qismət olmazdı. Ayaz Mütəllibov bizi arxayın edirdi ki, yüz il də qalsa, Xocalını verməyik. Nə vaxt Bakıya zəng edirdik, bizə ümid verirdilər. Xocalını kim verərdi axı erməniyə? Bir kiçik Stepanakert (Xankəndi - N.L.)var idi orda, ətraf hamısı Azərbaycan rayonları... Bu ümidlərlə Xocalıdan çıxmadıq, o vaxta qədər ki, erməni və rus tankla-tüfənglə girdi..."

**"Hərəmiz bir tərəfə qaçdıq, ailəmdən ayrı düşdüm..."**

Fevralın 25-dən 26-a keçən gecə... Axşam saatlarında yüzlərlə ailənin evinə od düşdü. Xocalı digər rayonlara bənzəmirdi, ətrafı erməni kəndləri ilə əhatələnmişdi. Gecənin qaranlığında, qarda-çovğunda buradan qaçmaq asan deyildi. Hara gedirdinsə, erməni kəndinə çıxırdın:

"Gecə qəfildən rusun tankları hücuma keçdi. Bizim də əlimizdə təklülə güllədən başqa heç nəyimiz yox idi, bununla tanka nə edə bilərdik? Bəzi cavanlarımıza köhnə avtomat veriblər, bir az atandan sonra tutulur, atəş açmır... Millət qırıldı... Yadıma salmaq istəmirəm, ürəyim ağrıyır (hıçqırır). Qucağımda nəvələrim, böyrümdə arvad-uşaq. Millət bir-birinə qarışıb. Allah belə günü bir də millətimizə göstərməsin, heç başqa millətlərə də..."







Atışma güclənir, güllə dolu kimi yağır... Qaçıb xilas olmağa çalışan Xocalı sakinlərini tanklar atəş yağdıraraq təqib edir. Bu məqamda Cəmil Məmmədov ailəsindən ayrı düşür, qucağında nəvəsi ilə əks istiqamətdə qaçır və həyat yoldaşını, digər övladlarını itirir. 3 gecə nəvəsi, qardaşı və bacısıoğlu ilə birlikdə meşədə, dizə qədər qarın içində qalır... Səhər meşəni duman aldığından yola düşür, tanımadığı istiqamətdə gedir, bir təpəni aşıb düzənliyə çıxır, növbəti təpədən aşır. Azərbaycan kəndlərinə çıxmaq ümidi ilə səhər saatlarında gedib erməni kəndi olan Piricamal kəndinə çıxır.

**"Erməni qadın pendir-çörək gətirdi"**

"Artıq ayaqqabı ilə yerimək mümkün deyildi. Yolda çıxarıb tulladım, yalın ayaqla qarda gedirdim, ayağım donmuşdu, tikan batmışdı, yerdəki çubuqlar yaralamışdı, ancaq qan axırdı hiss etmirdim. Duman çəkildi, bir də gördük ki, erməni kəndinə gəlib çıxmışıq. Onlar da bizi gördülər. Silahlılar üstümüzə töküldü, 3 dığa ətrafımızı kəsdi. Bir erməni qadın gəldi. Qucağımdakı uşağa baxıb təəssüfləndi. Nəvəm də o qədər gözəl uşaq idi ki, ay parçası kimi. Təxminən 5-6 yaşı vardı. "Ay Allah nə gözəl uşaqdır, bunun nə günahı var"- dedi. Gətirib ikimizə də pendir- çörək verdi. 3 gündür ac idim, ancaq dilimə də vurmadım, qoydum cibimə ki, nəvəm ac olanda verərəm. (Əlini masaya vurub, sakitləşməyə çalışdı, gözlərinin yaşını silib davam etdi).

"Əlimdə pul dolu zənbil var idi, o vaxtın pulu ilə 110 min manat. Dığalara dedim ki, pulu sizə verirəm. Bizi bu uşağın xətrinə buraxın gedək. Yerli erməni bir söz demədi. Ancaq Qafandan gələn bir erməni var idi, ləhcəsindən bildim, o razı olmadı. Erməni dilində söydü və tüfəngin qundağı ilə məni vurdu. Yıxıldım qara, uşaq ağladı, daha çox vurmadılar... Bizi maşına mindirib bir fermaya apardılar. Ferma azərbaycanlılarla dolu idi, qız-gəlin, uşaq-qoca, cavanlar... Orada uşağı məndən aldılar. Erməni hərbçi oğlumu tanıyırdı. Aparıb Ağdam sərhədində atasına təhvil vermişdilər. İndi həmin nəvəmin 30 yaşı var, ailəlidir, yaxşı yerdə işləyir, özünün apteki var".

**3 günlük əsirlik həyatı...**

Cəmil babanın taleyinə də erməni əsirliyində olmaq yazılıbmış. 3 gün əsirlikdə qalır və bu müddət başına nələr gəlir...

"Azərbaycanlılara elə işgəncələr verirdilər ki... Ən çox da cavanları öldürürdülər, aparıb çöldə güllələyirdilər. Qızım, Hitler nə qədər pis olsa da, ermənilərdən yaxşı olub. Qocaya, uşağa, qadına dəyməyib, uzaqbaşı güllələyib öldürüb, işgəncə verməyib. Ancaq ermənilər yer üzündəki ən murdar xalqdır. İmkanımın yaxşı vaxtında qızıl dişlər düzəltmişdim, o vaxt dəbdə idi. Bütün ağzım qızıl idi. Dişlərimi kəlbətinlə sökdülər, çığırda-çığırda çıxartdılar, acımadılar. Ağzımda bir dişim qalmadı, qan məni götürdü. Əlimi, ayağımı əsgər çəkməsinin dabanı ilə o qədər əzmişdilər ki, bir salamat sümüyü qalmamışdı. O qədər təpik vurmuşdular, bütün daxili orqanlarım zədələnmişdi. O vaxt bizim rəhbərlər televiziyada çıxış edirdilər ki, biz 7 milyonuq, ermənilər isə 3 milyon, onları Qarabağdan bir günə qovarıq. Bir dəfə oturduğum yerdə erməni dığası süngünü boğazıma dirədi. Qalx ayağa, dedi. Sizin rəhbərlər deyirlər ki, biz 7 milyonuq, ermənilər 3 milyon, onları taxta çubuqla Qarabağdan qovarıq. Ancaq unudurlar ki, biz 3 milyonluq ac canavar sürüsüyük, siz isə 7 milyon qoyunsunuz. Bu qədər ac qurdun qabağında 7 milyon qoyun nədir ki... Hanı sənin 7 milyonluq xalqın? Niyə gəlib sizə kömək etmirlər? Ürəyimdə təsdiq etdim ki, ermənilərin əsl üzünü bu günə qədər görməmişiksə, elə doğrudan da qoyunuq".

**Cəmil Məmmədovu oğlu necə xilas edir?**

Cəmil babanın ailəsi, oğlanları o qanlı gecədən xilas olub Ağdama gəlibmişlər. Təsadüfən, əsirlikdə onunla birlikdə olanlardan biri təhvil verilir və Cəmil babanın oğlu ilə qarşılaşır. Oğul atasını, əmisini soruşur. Ona sağ olduqlarını deyirlər. Sonra erməni hərbçiləri ilə danışıqlara girib atasını xilas edir.

"Oğlum Çernobıl əlili idi, erməni komandirlərini tanıyırdı. Erməni komandirinə deyib ki, mənim atamı, əmimi gətir. Komandir deyib ki, yaxşı vəziyyətdə deyil. Oğlum deyib fərqi yoxdur, nəfəs alırsa bəsimdir, gətir. Oğlum erməni kəndindən iki nəfər erməni oğurlayıb, bizimlə dəyişmişdi. Məni və qardaşımı maşına qoyub Ağdama gətirdilər".

**Xilas ola bilməyən təkcə Cəmil babanın bacısıoğlu olub**: "Ermənilər bacıoğlumdan soruşdu ki, bu torpaqlar kimindir? O da gənc idi, qanı qaynayırdı, dedi ki, əlbəttə, bizim, Azərbaycanın. Bir də soruşdular. Sinəsini açıb dedi, istəyirsiz öldürün, amma torpaqlar bizimdir, onu sizə vermərik. Elə həmin dəqiqə bacım oğlunu çölə çıxarıb güllələdilər. (Gözlərini yumub, yanağındakı yaşları silir). Qızım bu danışdıqlarım bizim başımıza gələnlərin heç 5 faizi deyil".

Cəmil Məmmədov xilas olduqdan sonra, 3 ay Respublika Xəstəxanasında yatır, müalicə alır və həyata qayıdır. Fədakar həkimlərin sayəsində sağlamlığını bərpa edir. Cəmil baba onları minnətdarlıqla xatırlayır.

**"Yaşlı atamı evdə qoyub çıxdıq, anam onu atıb gəlmədi"**

Cəmil Məmmədov Xocalı faciəsində 20 qohumunu itirir. Onların içində qayınatası və qayınanası da olur. Bu yerdə söhbətə xanımı Lalə Məmmədova qatılır.

O ata-anasını evdə qoyub çıxdıqlarını göz yaşları içində danışır: "Atamın 90-a yaxın yaşı var idi, yerimək də çətinlik çəkirdi. Qaçarkən onu götürə bilməzdik. Ancaq anam nisbətən cavan və qıvraq idi. O bizimlə qaçıb xilas ola bilərdi. Nə qədər yalvardıqsa, anam bizimlə gəlmədi. Ərinin yanında qalıb ölməyi seçdi. Ölsək də bir yerdə ölməliyik. Qızım, indiki qadınlar, adi sözün üstündə ərlərini, uşaqlarını atıb gedirlər. Ancaq o zaman sevgi daha güclü idi, insanlar bir-birinin uğrunda ölümə gedirdi. Onların sonrakı taleyindən xəbər tuta bilmədik. Nə öldüklərindən, nə yaşadıqlarından xəbərimiz olmadı. Heç indi də yoxdur".

**Ermənilər illər öncə hazırlaşırmış...**

Yaşı 80-ni haqlamış müsahiblərimiz deyirlər ki, bu hadisələr başlayana qədər ermənilərlə bir yerdə yaşayıblar, dostluq-qonşuluq ediblər. Ancaq onların belə bir işə əl atacaqlarını heç vaxt düşünməyiblər. Ancaq indi o günlərə nəzər salanda ilər öncə ermənilərin bu müharibəyə hazırlaşdıqları aydın görünür: "Bu hadisələrdən 6 il əvvəl bizim ətrafımızdakı erməni kəndlərinin əksəriyyəti evlərini satıb köçdülər. Ancaq o vaxt biz bunun mənasını başa düşmürdük. Bir dəfə onlardan şübhələndim. Əsgəranda Raçik adında bir erməninin evini tikirdim. Çörək yeməyə oturduq və birdən Raçik içkili halda dedi ki, bu evləri çox gözəl tikirik, ancaq çox heyfim gəlir. Hayıf bu evlərə. Çox təəccübləndim və səbəbini soruşdum, ancaq demədi. Sən demə, onlar hamısı xəbərdar imiş, ancaq heç biri ağzından qaçırmırdı. Sonra Raçik balaca oğlu Vitalini çağırdı. Soruşdu ki, bizim düşmənimiz kimdir? Oğlu dedi ki, türklər bizim düşmənimizdir. Hamısı güldülər. Onlar dil açan kimi uşaqlarına öyrədirdilər ki, türklər bizim düşmənimizdir. Bir süfrədə çörək kəsirdirlər, ancaq düşmən olduqlarını da unutmurdular. Bizim kəndə nə qədər erməni qızı gəlin gəlmişdi, qohumluq-dostluq var idi. Ancaq ermənilər üçün bunlar hamısı yalan imiş".

Sonda Cəmil baba onu dedi ki, yeganə arzusu o torpaqları görməkdir. Ancaq ömrünün buna vəfa edəcəyinə inanmır. Arzu edir ki, heç olmasa övladları, nəvələri həmin evlərə dönüb öz yurdlarına sahib çıxsınlar. Azərbaycanın son hərbi uğurlarından danışan Cəmil Məmmədov o günün uzaqda olmadığını dedi.

Mütəəssir halda qocaları gözüyaşlı qoyub ayrıldıq. Anladıq ki, onların qəlbindəki bu ağrı-acıya illər, fəsillərin ötməsi deyil, yalnız o torpaqların işğaldan azad edilməsi məlhəm ola bilər.

❑ Nərgiz LİFTİYEVA
Foto: Məğrur MƏRD

# Milli Məclis Xocalı soyqırımının tanınması üçün dünya parlamentlərinə müraciət etdi

## Oqtay Əsədov: "Azərbaycan öz ərazisinin bir hissəsinin işğalı ilə heç zaman barışmayacaq"

**24 fevralda spiker Oqtay Əsədovun sədrliyi ilə Milli Məclisin növbəti plenar iclası keçirildi. Spiker iclası açıq elan edərək bildirdi ki, iclasın gündəliyində Xocalı soyqırımının 25 illiyi ilə əlaqədar qərar layihəsini müzakirə etməklə bağlı məsələ var.**



Gündəlik təsdiqlənəndən sonra Xocalı soyqırımı qurbanlarının, Qarabağ şəhidlərinin, Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyi uğrunda mübarizədə şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Spiker ötən əsrin əvvəllərində Azərbaycan torpaqlarında, İrəvan, Göyçə, Zəngəzur qəzalarında, Dərələyəzdə erməni dövlətinin qurulmasından, 80-ci illərin sonlarında isə 1 milyon yarımdan çox azərbaycanlının Ermənistan ərazisindən və işğal olunmuş Azərbaycan ərazilərindən qovulmasından bəhs etdi. O.Əsədov bildirdi ki, Xocalı soyqırımının təşkilatçıları bölgədə öz maraqlarını həyata keçirmək istəyən qüvvələr, icraçıları isə Ermənistan olub: "Xocalı soyqırımına qədər təkcə Qaradağlı kəndində 80 nəfərdən çox azərbaycanlı girov götürülərək işgəncələrlə öldürülüb". O.Əsədovun sözlərinə görə, Xocalı soyqırımı Milli Məclisin qərarları ilə soyqırım kimi qəbul olunub. Həmçinin İslam Əməkdaşlıq Təşkilatı, bir sıra ölkələrin parlamentariləri Xocalı soyqırımını rəsmən tanıyıb, ABŞ-ın 21 ştatında bu dəhşətli soyqırım aktı ilə əlaqədar qərar qəbul olunub.

Sədr dedi ki, bu günlərdə Milli Məclisin üzvləri dünyanın bir sıra ölkələrində soyqırımla bağlı tədbirlərdə iştirak etməkdən ötrü ölkə xaricindədir.

"Azərbaycan öz ərazisinin bir hissəsinin işğalı ilə heç zaman barışmayacaq. Bu vəhşiliyi törədənlər layiq olduqları cəzalarına çatacaqlar. Biz əminik ki, gec-tez Azərbaycanın işğal olunmuş ərazilərində suveren hüquqlarımızın bərpasına nail olacağıq", - O.Əsədov bildirdi.

Daha sonra sədrin birinci müavini Ziyafət Əsgərov çıxış edərək bildirdi ki, Xocalı Azərbaycan xalqı üçün qəddarlıq və cəzasızlıq rəmzinə çevrilib: "Dinc əhalinin vəhşicəsinə kütləvi qırğını bütün insanlığa qarşı ən ağır cinayətlərdən biri olmaqla, XX əsrin Xatın, Lidiçe, Babi Yar kimi dəhşətli faciələri ilə bir sırada dayanır".

Sədr müavini qeyd etdi ki, Xocalı soyqırımı Azərbaycanın Dağlıq Qarabağ bölgəsini zəbt etmək məqsədi ilə Ermənistanın apardığı işğalçılıq müharibəsinin gedişində dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımı cinayətlərinin miqyasına görə ən dəhşətlisidir: "Xocalı sakini olan 613 nəfər dinc azərbaycanlı, o cümlədən 63 uşaq, 106 qadın işgəncə ilə öldürüldü. 8 ailə bütünlüklə məhv edildi. 487 nəfər şikəst edildi. 1275 sakin - qocalar, uşaqlar, qadınlar girov götürülərək ağlasığmaz təhqirlərə, zülmə və həqarətə məruz qaldılar. Girov götürülənlərdən 150 nəfərin, o cümlədən 68 qadının və 26 uşağın taleyi bu günədək məlum deyil. Xocalı şəhərinə hücum əməliyyatına 366-cı alayın zabitləri Seyran Ohanyan, Yevgeni Nabokix, Valeri Çitçyan rəhbərlik edib".

Qərar layihəsi ətrafında gedən müzakirələrdə çıxış edən **deputat Fərəc Quliyev** layihədəki Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini Ermənistan-Azərbaycan müharibəsi kimi göstərilməsini təklif etdi: "Bu, münaqişə deyil, müharibədir. Burada iki tərəf var-Ermənistan və Azərbaycan. Bu təqdimatda biz Dağlıq Qarabağı üçüncü subyekt kimi göstəririk. Bu, Ermənistanın törətdiyi hadisədir və qərarda da bu cür təqdim olunmalıdır".

**Deputat Siyavuş Novruzov** dedi ki, Azərbaycanın müvafiq qurumları heç olmasa şifahi də olsa, Xocalı soyqırımını törədən canilərə qarşı məhkəmə hökmü çıxarılmalıdır: "Biz nəyə görə onları gözləməliyik ki, gəlib izahat yazsınlar, ya ifadə versinlər? Bu qərarlar İnterpola göndərilməlidir ki, sonra bizə deməsinlər ki, niyə indiyə qədər müraciət etməmisiniz. Gözləmək olmaz ki, onlar haçansa tutulub gətiriləcək. Barələrində indidən qərar çıxarılmalıdır".

**Deputat Vahid Əhmədov** ötən əsrin əvvəllərindən ermənilərin azərbaycanlılara qarşı törətdiyi cinayətlərdən bəhs etdi: "20-ci əsrin faciəsi olan Xocalı soyqırımı Ermənistanın aqressiv siyasətinin nəticəsidi. Bu, təkcə azərbaycanlılara qarşı deyil, bəşəriyyətə qarşı cinayətdir".

"Serj Sərkisyanın azğın bəyanatları məcbur edir ki, biz hərbi yol seçək. Hələ deyir Azərbaycanda nazirlər 90-cı illərdə Xankəndidə çay içəcəklərini deyirdilər, amma Kəlbəcərdə də çay içə bilmədilər". Bu fikirləri isə **deputat, Azərbaycanın Milli Qəhrəmanı Şirin Mirzəyevin həyat yoldaşı Flora Qasımova** söylədi. Xanım-deputat Qarabağın azadlığı üçün çağırış edib: "Biz erməni məsələsini gələck nəsillərə qoya bilmərik. Bizim babalarımız zamanında bu məsələdən böyük əziyyətlər çəkdilər, sonra biz o əziyyətləri gördük, amma bu məsələni gələcək nəsillərə saxlamaq olmaz".

**Deputat Zahid Oruc** çıxışında tarixi faciələrimizdən bəhs etməklə yanaşı, tarixdən ibrət dərsi almağımızın vacibliyindən bəhs etdi: "Xocalı soyqırımı kimi hadisələrdən dərs almaq lazımdır. Biz bütün tarixi dəyişikliklər dövründə ərazi itirmişik. Bolşeviklər hakimiyyətə gəlib, onda ərazi itirmişik, bolşeviklər gedib, onda da itirmişik. Hələ mən əvvəlki dövrlərdən bəhs eləmirəm". **Z.Oruc MTN işi ilə bağlı olaylara da toxundu və maraqlı paralellik apardı:** "Hüquqi, siyasi, mənəvi sahədə təşkilatlanma dinc vaxtlarda olmalıdır, amma təəssüf ki, biz faciələrdən sonra bunu etmişik. Biz faciələrdən sonra hüquqşünas, ekspert olmuşuq. Təəssüf ki, belədir. Biz faciələrdən bir çox dərs çıxarmalıyıq. Baxın, Eldar Mahmudovun zamanında Xocalı soyqırımı 26 fevralda MTN əməkdaşları tərəfindən anılırdı. Amma 27 fevralda və ondan sonrakı dövrlərdə MTN əməkdaşları xalqı soymaqla, xalqa qəsd ilə məşğul idi". Deputat onu da qeyd edib ki, bu gün yenidən Azərbaycanı Rusiya ilə toqquşdurmaq olmaz. Bugünkü Ukrayna 90-cı illərin Azərbaycanına çox oxşayır. "Bizim davamız 297 nəfər canilərlə deyil, Ermənistan adlı dövlətlədir"- deyə, Z.Oruc əlavə etdi.

"Neçə illərdir ki, biz bu Məclisdə hamımız Qarabağ, Xocalı soyqırımı haqqında çıxış edirik. Ancaq özümüz deyib, özümüz eşidirik. O ildən bu tərəfə heç nə dəyişməyib. Birdəfəlik müharibə edək, onlar da qırılsın, bizimkilər də onsuz da qırılır. Bu danışıqlar mənə çatmır. Onsuz da qulaq asan, bu işlərə baxan yoxdur".

### Zeynəb Xanlarova: "Gəlin birdəfəlik müharibə edək, torpağımızı alaq!"

Bu fikirlər **deputat, xalq artisti Zeynəb Xanlarova**ya məxsusdur. Böyük sənətkar çıxışında dedi ki, müharibə tərəfdarıdır: "Gəlin birdəfəlik müharibə edək, torpağımızı alaq! Torpağımızı almaq üçün kimdənsə icazə almamalıyıq. 25 ildə gör nə qədər cavanlarımız qırılıb. Ya ölüm, ya qalım! Mən niyə ATƏT-ə qulaq asıram? Mənim evimə giriblər, mən onların evinə girməmişəm, torpağını almamışam". Z.Xanlarova Sülh Platformasına imza atmasına da işarə vurdu: "Mən ömrü boyu sülh tərəfdarı olmuşam. Amma mən 25-30 ildir bu vəziyyətin dəyişməməsindən çox narahatam. Dəyirman öz işindədir. Birdəfəlik dəyirmanı vuraq bunların başına, torpağımızı alaq! Hər gün ölməkdənsə, birdəfəlik ölmək lazımdır. Nə qədər gözüyaşlı analar qalar, nə qədər balalar qırılar? Elə bilin ki, onlar mənim balalarımdır. Az qırıblar Xocalıda olan uşaqları? Nə vaxta qədər dözməliyik? Kimi gözləyirik? Onsuz da onlar müsəlmanın düşmənidir. Kim nə deyəcək mənə? Bunu niyə onlardan xahiş edirəm ki, icazə verin, torpağımızı qaytaraq? Xocalı artıq gedib, onu geri qaytarmaq lazımdır. Mənim ürəyimdən gələn budur. Əgər mənim evimə basqın ediblərsə, mən evimi xilas etməliyəm. 25 ildir gözləyirik, bəlkə 50 il də gözləyək? Allah vurub onları, vuruşmaq, almaq lazımdır. Qurtardı!"

**Vitse-spiker Bahar Muradova** isə əvəzində dedi ki, müharibə etmək, sülh istəmək, onu necə həyata keçirmək, adamların dünya görüşü, həyata baxışı qəlbdən gələn şəkildə ifadə oluna bilər: "Amma bir qayda olaraq, siyasət siyasətçilərin işi olduğu kimi, hərb də hərbçilərin işidir. Hər kəs əmin olsun ki, Azərbaycan prezidenti sülh danışıqları aparmaqla yanaşı, ölkəmizi ərazilərimizin hərbi yolla alınmasına da hazırlayır. Övladlarımızın şəhid olması bizimlə yanaşı, Azərbaycan prezidentini də narahat edir". B. Muradova qeyd etdi ki, Xocalı işğaldan azad edilsə belə, bu faciə haqqında danışılacaq: "Bu faciəni unutmaq olmaz".

**Deputat Qənirə Paşayeva** Şəhidlər xiyabanında Xocalı abidəsinin qoyulması təklifini irəli sürdü: "Bakıda soyqırımı muzeyi ilə bərabər, Şəhidlər xiyabanında Xocalı informasiya mərkəzinin yaradılması da vacibdir. Soyqırımı dünyaya daha təsirli dildə çatdırmaq üçün beynəlxalq səviyyəli bədii filmin çəkilməsinə böyük ehtiyac var. Yəhudi soyqırımı ilə bağlı "Pianoçu" filminin yəhudi soyqırımı gerçəklərinin dünyaya yayılmasında böyük təsirini xatırlayaq".

**Deputat Rafael Cəbrayılov** da həmkarına dəstək olaraq, dedi ki, Azərbaycanda soyqırımını özündə əks etdirən möhtəşəm memorial kompleks yoxdur: "Şəhidlər xiyabanında soyqırımı memorial kompleks salınmalıdır".

Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində biz Xocalıya dönəcəyik və Xocalı soyqırımının şahidləri Xocalının yenidən inşa edilməsinin şahidi olacaqlar". Bunu isə deputat, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu dedi.

**Milli Məclis sədrinin müavini Bahar Muradova** Xocalı soyqırımının 25 illiyi ilə əlaqədar parlamentin qərar layihəsi haqqında məlumat verdi. Sənəddə bildirilir ki, qərar layihəsi ilə 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan Respublikasının hərbi birləşmələri, Dağlıq Qarabağdakı erməni silahlı dəstələri və keçmiş sovet ordusunun 366-cı motoatıcı alayı tərəfindən Xocalı şəhərində azərbaycanlıların kütləvi qırğınının Milli Məclisin 1994-cü il 24 fevral, 1995-ci il 24 fevral, 2007-ci il 27 fevral və 2012-ci il 24 fevral tarixli qərarları ilə soyqırımı (genosid) cinayəti kimi qiymətləndirilməsi bir daha təsdiq edilir.

Qərarla Milli Məclis deputatlarına bir vəzifə olaraq tapşırılır ki, xarici ölkələrə səfərlər zamanı, o cümlədən beynəlxalq təşkilatların tədbirlərində iştirak edərkən son yüz ildən artıq dövrdə azərbaycanlıların məruz qaldıqları soyqırımı aktları, o cümlədən Xocalı faciəsi haqqında həqiqətlərin daha geniş yayılmasını təmin etsinlər. Bu məqsədlə deputatlara Milli Məclisin xarici ölkələrin parlamentləri ilə əlaqədar üzrə işçi qruplarının imkanlarından dolğun və səmərəli istifadə etmələri tapşırılır. Hüquq-mühafizə orqanlarına tövsiyə olunub ki, Xocalı şəhərində soyqırımı aktının törədilməsində iştirak etmiş şəxslərin müəyyən edilməsi və cinayət məsuliyyətinə cəlb olunması üçün görülən tədbirləri davam etdirsinlər.

Müvafiq dövlət və qeyri-hökumət qurumlarına, o cümlədən qeyri-hökumət təşkilatlarına tövsiyə edilir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məlumatların geniş yayılması, yalançı erməni təbliğatının ifşa edilməsi üçün səylərini birləşdirsinlər.

Xarici ölkələrin parlamentlərinə, beynəlxalq parlament təşkilatlarına müraciət edilib ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Dağlıq Qarabağ bölgəsindəki Xocalı şəhərində azərbaycanlıların kütləvi qırğınını soyqırımı cinayəti kimi tanısınlar.

**Qərar layihəsi səsə qoyularaq yekdilliklə qəbul edildi.**

**Elşad PAŞASOY**

# Üç şey



Zamin HACI
zaminhaci@gmail.com

"Məncə, sən hər şeyi mürəkkəbləşdirirsən - amöb volvoksa belə dedi" (Z.H.)

**Prezidentin fərmanı ilə "Azərsun" prezidenti Abdulbori Goozal-a "Şöhrət" ordeni verilmişdir. Məncə, bu, "Şöhrət" ordenimizin tarixində ən yerinə düşənlərdən biri, bəlkə də birincisi idi. Çünki ölkəmizdə "Azərsun" qədər şöhrətli ikinci bir firma yoxdur. Hara getsən, qabağına ona aid nəsə çıxacaqdır. İstənilən dükana girsən duzdan qəndə, çaydan yağa, ətdən turşuya - hər bir məhsulun üzərində onun adını görərsən. Futbol deyirsən - futbolda var. Hokkey deyirsən - orda da var. Əsl şöhrətdir. Mən də təbriklərə qoşuluram, arzu edirəm, "Azərsun" çoxlu qəzet açsın. Təyyarə uçurtsun. Canım sənə desin, kosmosa uçsun. Hətta metronu da bu firmaya verək. O cümlədən, yaxşı olardı xəstəxana açsın və torpaqlarımızı geri qaytarsın. Yoxsa, vallah, batıb gedirik.**

Sözgəlişi, dünən hardasa oxudum ki, "Xəyal adası"nın tikintisində işləyənlər maaş ala bilmir. Etiraz edirlər. Həyasız hərəkətdir. Maaş yoxdur, xəyala dal. Bəyəm bura işə düzələndə sənə xəyalplov vəd etməmişdilər? Əşşi, beş barmağını bala batır, ağızlarına sox, yenə düzələn deyil bəzi insanlar. Qarabağ dərdimiz var, hamımız bir nəfər kimi AzTV ətrafında birləşmək yerinə Fox TV-ni axtarırlar. Dünən özüm şahid oldum: dükanda satıcı və müştəri kanalları pultla ələk-vələk eləyib deyirdilər ki, görəsən Fox TV-ni necə tapaq. İndi belə qədirbilməz adamlardan ötrü vuruşmağa, islahat aparmağa, ASAN xidmət düzəltməyə dəyərmi? Dəyməz. İntəhası, yenə bu millət yeyib doyubdur, başqasını gətirsən daha pis olar. Qoy qalsınlar yerlərində.

Bu yaxında başqa bir qəzet isə yazmışdı ki, qəfil varlanan adamlar dəli olurmuş. Amerikada bu istiqamətdə elmi araşdırma aparılıbdır. Lotoreyada çoxlu pul udan adamların həyatını öyrəniblər, görüblər bunlar xoşbəxt olmaq yerinə müsibətə düşüblər. (Bilmirəm hardansa yadıma SSRİ vaxtı Latviyada çəkilən, o dövrün məşhur filmi "Miraj" düşdü. Bəlkə tərcüməsi "xəyal" olduğu üçün? Ya da orda da oğurluqla çoxlu pul əldə edənlərin faciəli sonluğuna görə?). Üzeyir bəyin sözü olmasın, əslində bizim bunu - varlı adamların dəli olmasını - anlamağımız üçün buşmenlərin və qottentotların, indiki halda isə amerikalı alimlər və lotoreya oynayanların yanına getməyimiz lazım deyildir. Elə özümüzə baxsaq yetərlidir. Çünki biz də Bakı-Ceyhan kəməri işə düşəndən, dünya bazarında isə neftin qiyməti qalxandan sonra sel kimi gələn pullardan başımızı itirdik, havalandıq. Ta bilmirdik nə edirik, əməllicə açar itmişdi, el dilində desək. Gah ən uzun bayraq düzəldirdik, gah analoqu olmayan iş yerləri açırdıq. Birdən kosmosa peyk uçururduq, qəfildən dönüb Yerin altına girir, maqma qatının muğam festivalına təsirlərini öyrənərək milli xalçalarımızın naxışlarında sarı gəlinlərin bişirdiyi qədim dolmaların izlərini axtarırdıq. Cümlənin belə dolaş-bulaş, Anadolu türkləri demişkən, ərəb saçına dönməsinə görə qınamayın. Həqiqətən böyük neft pulları dövrümüzü - 2005-2015-ci illər arasını araşdırmaq üçün vaxt gələcək böyük elmi-tədqiqat institutu yaradılacaq. Bu, Azərbaycan tarixinin xüsusi bir epoxasıdır, təkrarsızdır. Nə maskalar cırıldı, nə sifətlər açıldı, nə adamlar dirildi, nə adamlar öldü...

**Sonda isə bir hüquq islahatına diqqət yönəldək. Qabaqlar bizdə istənilən çətənə kolu (marixuana, anaşa; elə arasında "şey" də deyilir - fəlsəfi olaraq) əkəni tutub dama salırdılar. Təzə qanunla isə ancaq xeyli miqdarda çətənə kolu əkənlər həbs ediləcək. "Xeyli miqdar" dedikdə isə 3-15 arası bitki kolu nəzərdə tutulur. İki dənəyə qədər bitki cərimə ilə yaxa qurtarmağa bəs edəcək. Dünyanın çox yerində bu bitkini artıq ümumiyyətlə cinayət sferasından çıxarırlar. Bizdə 3 "şey" bitkisi özü də böyük islahatdır. Tam ləğv eləsən, sabah cibə hansı bitkini atacaqsan? Dövlətçilik baxımından hərc-mərclik yaranar.**

# Ermənistan Azərbaycanın səbrini imtahana çəkir

**4 günlük aprel müharibəsinin ildönümü yaxınlaşdıqca işğalçı Ermənistanın narahatlığı da artır. Bunu həm İrəvan rəsmilərinin, konkret olaraq, prezident Serj Sərkisyanın seçki təbliğatı kampaniyası çərçivəsində verdikləri ürkək bəyanatlarından, həm də ötən ilin aprelindən sonra onların Rusiyadan aldıqları bəzi silahları tez-tez dilə gətirib, ara-sıra Azərbaycana ünvanlı hədələyici açıqlamalar verməlderindən görmək olar.**



# "Bakını vurmağa İrəvanın cürəti çatmaz" - işğalçıya "soyuq duş" xəbərdarlığı

İrəvanın hərbi ritorikası ən əvvəl onun özü üçün təhlükəli hesab edilir; rusiyalı tanınmış ekspert erməniləri məyus etdi: "İsgəndər"lə asimmetrik zərbə sizi xilas etməyəcək"; **azərbaycanlı politoloq isə yeni savaşın anonsunu verir:** "Hadisələr aprel olaylarına bənzər sonluğa gətirə bilər..."

**Bu kimi bəyanatlarda müharibə xofu da aydın sezilir. Necə deyərlər, işğalçı ölkənin siyasi-hərbi rəhbərliyi bir yandan Azərbaycana "xox" gəlməyə çalışırsa, digər yandan özü də möhkəm qorxur, təlaş keçirir. Serj Sərkisyan çıxışlarının birində boşuna "dünyada qorxmayan adam yoxdur", deməmişdi ki...**

***

Son olaraq Ermənistanım müdafiə naziri Vigen Sərkisyan "RİA-Novosti"yə müsahibəsində özündənrazı şəkildə "İsgəndər" raket komplekslərini üstünlüklərindən danışaraq, onu gözümüzə soxmağa çalışmış, guya bu raketlərin Bakıya qarşı çəkindirici qarant rolunda olduğunu iddia eləmişdi. Lakin erməni müdafiə nazirinin, digər İrəvan rəsmilərinin analoji, bir az da reallıqdan uzaq eyforik bəyanatını şərh edən rusiyalı tanınmış şərhçi, xarici siyasət, müdafiə və təhlükəsizlik sahəsində ekspert Qriqori Trofimçuk fərqli düşünür.

"Erməni tərəfi bu yaxınlarda məxsusən dəqiqləşdirdi ki, Moskva yox, onun özü "İsgəndər"lərin idarə pultunda "əyləşib". Məhz bu kimi bəyanatlar çəkindirici sayıla bilər, nəinki həmin raket kompleksinin özü. Çünki bu sistemi praktikada, döyüş şəraitində tətbiq etmək lazım gəlsə belə, istənilən halda Moskvanın razılığı alınmalıdır. O sadə səbəbə ki, Rusiya və Ermənistan eyni hərbi blokun üzvləridir". Musavat.com-un məlumatına görə, bu sözləri politoloq rusdilli Vesti.az saytına açıqlamasında deyib.

Bununla belə, politoloq aşağıdakı məqamları vurğulamağı da zəruri sayıb: "Ancaq tarix göstərir ki, eyni silahın münaqişə tərəflərində olması onların bir-birinə hücum etməsini əngəlləməyib. Adi tüfənglər olan vaxtda da belə olub, eyni şeyi həm Azərbaycanın, həm də Ermənistanlın malik olduğu raket kompleksləri haqda söyləmək olar. Bu mənada "İsgəndər"lərə möcüzə və yüz faizli zəmanət kimi baxmaq əlbəttə ki, olmaz. Ona görə ki, əgər Bakı ötən ilin apreli ilə müqayisədə cari təmas xəttinin daha dərinliyinə girmək qərarı versə, o zaman keçən ilki kimi bir müharibə olacaq. Yəni, onun davamı olacaq. Əgər Ermənistan "İsgəndər" vasitəsilə Azərbaycan ərazisinə və ya birbaşa Bakıya asimmetrik zərbə endirmək fikrinə düşsə, o zaman bu, avtomatik şəkildə bütün Güney Qafqazda müharibəyə gətirəcək".

***

Bu, doğrudan da artıq böyük savaş demək olardı. Belə bir müharibəni aparmağa isə Ermənistanın nə yetərli iqtisadi, nə də insani resursu var - "İsgəndər"lə öyünməyə nə var? Belə bir müharibə yüzdə yüz Ermənistanın simvolik dövlətçiliyinin də üstündən xətt çəkəcək.

Düşmən gərək unutmasın ki, Azərbaycan indi artıq Türkiyə, nüvə Pakistanı, Güney Azərbaycan, İsrail kimi əlavə və mühüm dəstəkçilərə, strateji tərəfdaşlara da malikdir. Onu da gərək yaddan çıxarmasın ki, Azərbaycan yerində dayanmayıb və "İsgəndər"lərlə bağlı da gərəkəni edir. Lazım olarsa, bu kompleksi o, Rusiyadan ala da bilər. Hər necə olmasa, Moskvanın imtina üçün heç bir hüquqi əsası yoxdur. Əks halda, Bakı İrəvandan fərqli olaraq, Rusiya ilə silah ticarətini dondura, onu başqa dövlətlə əvəzləyə bilər. Düşünmürük ki, bu, Kremlin maraqlarına cavab verərdi...

Müxtəsəri budur ki, İrəvanın Bakını vurmağa cürəti çatmaz. Həm də o səbəbə ki, Naxçıvandan İrəvan və Metsamor AES-ini daha tez vurula bilər, çünki aradakı məsafə İrəvandan, Xankəndindən Bakıya olan məsafədən dəfələrlə yaxındır. Odur ki, belə ağılsız qərardan öncə erməni rəhbərləri 10 dəfə düşünməlidir. Axı, söhbət faktiki surətdə işğalçıya "soyuq duş" effekti vəd edən reallıqdan gedir.

***

Yerli siyasi təhlilçilər də vəziyyətin partlayış xarakterli olmasına diqqət yönəldirlər. O sırada politoloq Arzu Nağıyevə görə (Axar.az), son zamanlar istər təmas xəttində, istərsə də Ermənistan-Azərbaycan sərhədində baş verən hadisələr birbaşa Ermənistanda keçiriləcək seçkilərlə bağlıdır. Onun qənaətincə, Qarabağ münaqişəsi hər zaman bütün siyasi proseslərdə ermənilər tərəfindən bir kart kimi istifadə olunub.

"Bu azmış kimi, qondarma rejim "referendum" keçirir, üstəlik, Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz olaraq gəlmiş xarici "müşahidəçilər" həmin saxta tədbirə qatılırlar. Ermənilər müxtəlif təxribatlara əl atmaqla guya atəşkəsin Azərbaycan tərəfindən pozulmasını göstərmək istəyirlər. Bu, hər iki tərəfdən itkilərlə nəticələnir. Təəssüf ki, Minsk Qrupunun həmsədrləri də ciddi bəyanatlarla çıxış etmirlər. Təbii ki, hərbi yolla münaqişənin həllinə qadir olan ölkənin başçısı - prezident İlham Əliyev çox ciddi bəyanatla çıxış etdi və bildirdi ki, separatçı və işğalçı rejim Azərbaycanın hər bir əsgərinə, zabitinə görə cavab verəcək", - deyə ekspert diqqətə çatdırıb.

Politoloq vurğulayıb ki, erməni tərəfi istər BMT, istərsə də digər beynəlxalq qurumların qərarlarına məhəl qoymur, öz siyasi məqsədlərinə çatmaq üçün hər gün təxribatlara əl atır: "Deməzdim ki, bu, genişmiqyaslı hərbi əməliyyatlara gətirib çıxaracaq. Lakin artıq ağır artilleriya və digər silahlardan istifadə edilməyə başlanıbsa, bu proses aprel hadisələrinə bənzər bir sonluqla nəticələnə bilər".

***

**Beləcə, konstruktiv danışıqlardan, ədalətli sülhdən israrla boyun qaçıran işğalçı ölkə Azərbaycanın səbrini az qala, hər gün sınağa çəkməkdədir. Bu səbir isə sonsuz deyil...**

❑ **Analitik xidmət**

**Xocalı soyqırımının 25 illiyində Ermənistana, onun hakimiyyətinə ən böyük zərbə bilirsiniz nədir? Bir qrup erməni fəalın soyqırıma görə Azərbaycan xalqından üzr istəməsi və baş verənlərə görə öz ölkəsini, hakimiyyətini lənətləməsi. Serj Sərkisyan iqtidarının Bakıya gələn, Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidənin qarşısında baş əyən ermənilərin dediklərini susqunluqla qarşılamasının bir adı var: gözləmirmiş!**

Elşad PAŞASOY
epashasoy@yahoo.com



# "Sülh Platforması" + hərbi əməliyyatlar = Qarabağ!

## Bütün alternativlər qələbəyə - Qarabağa aparmalıdır...

Dünən erməni publisist, yazıçı və ictimai xadim Vahe Avetyan növbəti dəfə, özü də bir qrup erməni fəalın adından Xocalı soyqırmına görə Azərbaycan xalqından üzr istədi, xalqımıza başsağlığı verdi. Əslində çox ciddi məsələdir. Təsəvvür edin ki, bizim illərədir dediklərimizi ermənilər özləri deyir! Dünya bu cür mövqeləri daha səhih sayır. Bu mənada Xocalı soyqırımının tanınması işində yeni mərhələ başlaya bilər.

Düzdür, Ermənistanın İtaliyadakı səfiri Viktoriya Baqdasaryan elə dünən erməni mediasında Xocalı qatillərini müdafiə mövqeyindən çıxış edib. O da bəzi erməni uşaq qatillərinin müdaiə üçün iddia edib ki, Xocalı faciəsi Ayaz Mütəllibov hakimiyyətini devirmək üçün "Xalq Cəbhəsi tərəfindən" təşkil olunmuşdu.

Səfir deyəsən, unudub ki, Xocalı soyqırımının başında dayandığını Ser Sərkisyan şəxsən özü etiraf edib və britaniyalı jurnalist Tomas de Vall bu etirafların stenoqramını "Qara Bağ" kitabında nöqtə-vergülünə toxunmadan dərc etdirib. "Xocalı bir vaxtlar bütün Qarabağı çox bezdirirdi" deyən Serj Sərkisyan uşaq qatili olmasından fəxarətlə danışmışdı. **Sitat:** "Xocalıya qədər azərbaycanlılar bizimlə sadəcə zarafat etdiklərini düşünürdülər. Azərbaycanlılar elə bilirdilər ki, ermənilər dinc əhaliyə əl qaldıra bilməyən insanlardır. Bütün bu düşüncələri dəyişmək lazım idi. Belə də oldu". Ermənistanın İtaliyadakı gözəlçəsi Azərbaycanın özünü ittiham etməzdən əvvəl S.Sərkisyanın həmin fikirlərini oxusa, yaxşı olardı.

Bu gün artıq bəzi ermənilər də Xocalıya görə bizdən üzr istəyirsə, demək, saxta iddiaların mənası yoxdur. Təbii ki, ədalətin tərəfində dayanan ermənilər bu addımı durduqları yerdə atmayıblar, onları buna vadar edən səbəblər, təşəbbüskarlar var. Heç şübhəsiz ki, bu təşəbbüskarlar Bakıda Sülh Platformasının imzalanmasına nail olan şəxslərdir. Kənardan baxanda bəlkə də asan görünə bilər, hətta bəziləri burada "xəyanət" izləri axtarır. Ancaq təsəvvür edin, erməni fəallar lobbi fəallarının ölüm təhdidlərinə rəğmən Azərbaycanın ərazi bütövlüyünü tanıdıqlarını, işğala son qoyulması tərəfdarı olduqlarını, Xocalıda soyqırım törədildiyini açıq şəkildə bəyan edirlər, "Sərkisyan edam olunmalıdır" deyirlər... Başladılan prosesin Azərbaycan üçün nə qədər faydalı olduğunu bəlkə çoxlarımız hələ də təsəvvür etmirik. Bu etiraflar tarixdə qalacaq.

Fərqli düşünən şəhid ailələrini, Qarabağ qazilərini, torpağından didərgin düşənləri, Qarabağın ağrı-acısını daşıyanlarımızı anlamaq çətin deyil. Bəli, çox dəhşətli hadisələr baş verib. Çox böyük zərbə dəyib, böyük itkilər vermişik, nə qədər insanımız gözüyaşlı qalıb. Dəyən zərər təkcə 800 milyardlıq (!) maddiyyatdan ibarət olsaydı, nə vardı ki? Ancaq tarixdə bütün müharibələrin sonu sülhlə bitib. Şübhəsiz ki, nə zamansa bizim dağlara da, elə (qara)bağlara da sülh gələcək. Ona görə də sülh variantını heç zaman özümüzdən kənar tutmamalıyıq. Bu, həm də Azərbaycanın beynəlxalq imici baxımından faydalıdır, həm də itkilərimizin daha çox olmaması üçün vacibdir.

"Ermənistan-Azərbaycan Sülh Platforması"nın həmtəsisçisi, deputat Rövşən Rzayevin bir fikrini xatırlatmaq istəyirəm. Qəzetimizə müsahibəsində tam qətiyyətlə "Azərbaycan torpaqlarının hər bir qarışı uğrunda mübariz aparacağıq" söylədi. Şübhə etmirəm. Həm də ona görə ki, sülh prosesinin arxasında Azərbaycan dövlətinin iradəsi dayanır. Bütün alternativlər qələbəyə-Qarabağa aparmalıdır; bu mövqe prioritetdir şübhəsiz ki.

Keçən ilin aprelində qazandığımız yüksəkliklər, azad olunmuş Cocuq Mərcanlı kəndinin bərpası prosesinə start verilməsi, bütün bunlar həm də mövcud hakimiyyətin aktivinə yazılmırmı? Elə isə hakimiyyət nədən durduğu yerdə xalqı narazı salan, Azərbaycanın uğursuzluğuna apara biləcək layihəyə imza atsın ki? Mümkün də deyil! Qarabağın hərb, yaxud sülh yolu ilə işğaldan azad olunması həm də bugünkü hakimkiyyətin tarixə düşməsi demək olacaq, razılaşırısınızmı? O halda niyə hakimiyyət şansını qaçırsın ki? Bakıda ermənilərlə azərbaycanlıların bir araya gəlib dünyaya birgə sülh mesajları verməsi, işğalı lənətləməsi Sərksiyanın tərksilah olunması deməkdir. Keçən il o, "bütün dünya yığılsa, Qarabağ ermənilərini Azərbaycanla birgə yaşamağın mümkünlüyünə inandıra bilməz" iddiası ilə manipulyasiya edirdi. Ancaq Ermənistandan Bakıya qaçanların, burada normal yaşayanların sayının artması İrəvanın 7 rayonla ələqədar səsləndirdiyi "Dağlıq Qarabağın təhlükəsizlik zolağı" arqumentini alt-üst etdi. Bu gedişlə dünya əmin olacaq ki, problem erməni-azərbaycanlının arasındakı münasibətlərdə deyil və onların birgə yaşaması tam mümkündür.




Digər bir məsələni də unutmayaq: Sülh Platformasının yaradılması o demək deyil ki, Azərbaycan cəbhədəki əsgərini geri çəkir, silahlarını anbara yığır. Elə sülh mesajlarının verildiyi bu 3 ayda cəbhədə gərgin döyüşlər oldu, qarşılıqlı itkilər verildi. İki gün əvvəl də Azərbaycan ordusunun rəhbərliyi cəbhə xəttindəydi, döyüş vəziyyətinə şəxsən nəzarət edirdilər, düşmənə qarşı daha sərt cavab verilməsi barədə müdafiə nazirinin əmri oldu. Yəni Sülh Platforması Azərbaycan ordusunun əl-qolunu bağlamır, əksinə, Bakının sülh tərəfdarı olması barədə davamlı mövqeyi düşmənlərimizin və onun havadarlarının bəhanələrini aradan qaldırır.

Reallığı da nəzərə almalıyıq. Ötən ilin aprelində üçüncü qüvvələr araya girməsəydi, Azərbaycan ordunun qarşısını kəsmək mümkün olmayacaqdı. Bunu ermənilər də yaxşı anlayır. Düməli, bizim bu gün qarşımıza yalnız hərbi yolu qoyaraq hücuma keçməyimizin ciddi fəsadları ola bilər. Qarşıda vətəndaşlarını pasportsuz Ermənistana göndərmək imkanı olan imperiya var. Bizə dinc yol təklif edirlər, biz də deyirik nəinki razıyıq, hətta bununüçün "Sülh Platforması" da imzalamışıq, özü də işğala son qoyulmasını təkcə azərbaycanlılar yox, həm də özgə torpağında ölmək istəməyən ermənilər də istəyir.

**İnanaq ki, "Sülh Platforması" Qarabağı geri almaq üçündür, vermək üçün yox! Bu, həm də əsgərlərimizin həyatını sığortalayan prosesdir. Bizimçün hər bir əsgərin həyatı çox qiymətlidir. Təsəvvür edək ki, Ali Baş Komandanın əlinin altında iki "düymə" var, həm sülh, həm də hərb düyməsi. Hər ikisinin basılması bizi Qarabağa aparırsa, niyə narahat olaq ki?**


Elxan Şahinoğlu

# "Bütün xahiş və müraciətlərə baxmayaraq Lapşin işini sona çatdırmaq lazımdır"

**Siyasi ekspert:** "Ona törətdiyi qanun pozuntusuna uyğun cəza kəsilməlidir, yalnız bundan sonra əfvdən söhbət gedə bilər"

**Azərbaycanda həbsdə olan blogger Aleksandr Lapşinin hüquqlarını müdafiə edəcək yeni vəkili Eduard Çernin dünən müdafiə etdiyi şəxslə görüşüb. Bu barədə APA-ya vəkil özü bildirib. Görüş Bakı İstintaq Təcridxanasında baş tutub. Vəkil deyib ki, A.Lapşin səhhətində hər hansı problem olmadığını bildirib, saxlanma şəraitindən şikayət etməyib. O, vəkilə Dağlıq Qarabağa getdiyini təsdiq edib.**

Qeyd edək ki, Azərbaycan Vəkillər Kollegiyasının üzvü Eduard Çernin A. Lapşinin şəxsi istəyi ilə onun müdafiəsinə qoşulduğunu deyib.

Xatırladaq ki, Azərbaycan Baş Prokurorluğunun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsində istintaqı aparılan cinayət işi üzrə Rusiya, İsrail, Ukrayna vətəndaşlığını daşıyan Aleksandr Lapşin Azərbaycanın dövlət sərhədini qanunsuz olaraq keçmə, ərazi bütövlüyünü parçalamağa yönələn açıq çağırışlar etmə əməllərinə görə təqsirləndirilən şəxs qismində cəlb edilib beynəlxalq və dövlətlərarası axtarışa verilməsi ilə əlaqədar 2016-cı il dekabrın 15-də Belarus Respublikasının hüquq-mühafizə orqanları tərəfindən Minskdə saxlanılaraq, 2017-ci il fevralın 7-də Azərbaycan Respublikasına ekstradisiya edilib. Hazırda Ədliyyə Nazirliyin Penitensiar Xidmətin Bakı istintaq təcridxanasında saxlanılır.

Aleksandr Lapşinin anası Bella Lapşina isə iki gün öncə Bakıya gəlib. Fevralın 23-də Bella Lapşina Rusiya və Belarus səfirlikləri vasitəsilə 1 saylı Bakı İstintaq təcridxanasında saxlanılan oğlu ilə görüşüb.

B.Lapşina Azərbaycan prezidentinə Aleksandr Lapşinin əfv edilməsi üçün müraciətini xatırladıb və ümid etdiyini bildirib ki, oğlu bağışlanacaq.

Qeyd edək ki, A.Lapşinin özü də ekstradisiyadan öncə Azərbaycan prezidentində üzrxahlıq məktubu yazaraq bağışlanmasını xahiş edib. Bella Lapşinanın Bakıda Azərbaycan hakimiyyətinin təmsilçiləri ilə görüşüb belə bir xahişi etməsi istisna deyil.

Siyasi ekspertlər isə hesab edir ki, A.Lapşin məsələsi özünün hüquqi sonluğuna çatdırılmalıdır. **Politoloq Elxan Şahinoğlu** bildirdi ki, bütün xahiş və müraciətlərə baxmayaraq Lapşin işini sona çatdırmaq lazımdır ki, başqalarına da dərs olsun: "Ən vacib məsələlərdən biri Lapşinin Bakya ekstradisiyasına nail olmaq idi. Ekstradisiya olmamağı üçün də xahiş və müraciətlər edilmişdi. Lakin Azərbaycan və Belarus rəhbərliyi bu məsələdə hüququn aliliyinə arxalanaraq doğru hərəkət etdilər. İndi də kimin müraciət və xahiş etməsindən asılı olmayaraq Aleksandr Lapşinin məhkəməsi keçirilməli, ona törətdiyi qanun pozuntusuna uyğun cəza kəsilməlidir. Yalnız bundan bir müddət sonra əfv məsələsindən söhbət gedə bilər. Yoxsa onun məsələsinin hüquqi sonluğa çatdırmamaq ciddiliyimizi şübhə altına ala bilər. Bu adam qanunlarımızı düz iki dəfə bilərəkdən pozub. Buna görə cavab verməlidir. O bizim məhkəmənin qərarını görmədən, öz üzərində hiss etmədən yalnız özünün və ya yaxınlarının üzrxahlıq məktubu, xahişi ilə aradan çıxsa, kim zəmanət verə bilər ki, o və onun kimilər əməllərinə davam etməyəcəklər. Ermənistan və erməni lobbisi bilməlidir ki, üçüncü ölkə vətəndaşlarını Azərbaycana qarşı qanunsuz hərəkətlərə həvəsləndirəndə, bunun cavabı gələcək".

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 43 (6657) 25 fevral 2017

# Ləğv edilmiş MTN-in müstəntiqi iş adamının əmlakını geri qaytarmır

## Maqsud Mahmudov: "Eldar Mahmudov vəzifədə deyil, amma əlaltıları bizim başımıza oyun açmaqda davam edir"

**"Eldar Mahmudov illərlə başımıza oyun açdı, qanunsuz həbs etdirdi, pulumuzu, varımızı əlimizdən aldırdı. Düşünmədi ki, bir gün sonu gələcək. 2015-ci il oktyabrın 17-də prezidentin onun işdən çıxarılması haqda qərarı məni, mənim kimi haqqı pozulan yüzlərlə iş adamını sevindirdi. 2-ci ildir ki, Eldar Mahmudov vəzifədə deyil, amma əlaltıları bizim başımıza oyun açmaqda davam edir. Bu qədər olmaz axı..."**

Bunu iş adamı Maqsud Mahmudov deyir.

2016-cı ilin əvvəlində iş adamı Maqsud Mahmudov ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin müstəntiqi Cavid Quluzadə və Azad İsmayılova qarşı iddia qaldırıb. Nərimanov Rayon Məhkəməsinə iddia ərizəsi ilə müraciət edən iş adamı qeyd edib ki, Bakı-Sumqayıt yolunda yerləşən "Las Veqas" restoran kompleksi və "Mercedes C 300" markalı, qara rəngli, Az 90 ZD 650 nömrə nişanlı maşın MTN əməkdaşları tərəfindən ondan zorla alınıb. Maşını müstəntiq Cavid Quluzadə əvvəlcə öz adına keçirib.

İşin mahiyyəti budur ki, 2015-ci ilin əvvəlində iş adamı Maqsud Mahmudov "Texnikabank"a müraciət edərək 1 milyon 500 min manat kredit alıb və özü də bilmədən "MTN çetəsi"nin diqqət mərkəzinə düşüb. İş adamı həmin kreditin alınması üçün Bakı-Sumqayıt yolunda yerləşən "Las Veqas" restoran kompleksini girov qoyub. Kreditin alınmasından 3 ay sonra M.Mahmudovu "Texnikabank"ın Müşahidə Şurasının sədri vəzifəsini icra edən Ayaz Gərayzadə və müavini, Beynəlxalq Bankın sədri Cahangir Hacıyevin bacısı oğlu Cəmin Hacıyev çağırıblar. İş adamına qarşı ağlasığmaz tələb irəli sürülüb. Ondan reket qaydasında 2020-ci ilədək geri qaytarmalı olduğu krediti 3 günə geri ödəmək tələb olunub. 3 gün sonra isə o, MTN-in istintaq şöbəsinin müstəntiqi Cavid Quluzadənin müşayiəti altında "Texnikabank"a, Cəmin Hacıyevin hüzuruna aparılıb. İş adamı MTN-ə aparılmaqla təhdid edilib, başına oyun açılacağı deyilib. Bundan sonra iş adamı pulu ödəmək iqtidarında olmadığını söyləyib. Onu MTN-çi müstəntiq və digərlərinin əhatəsində təhdid altında Sumqayıt şəhərində yerləşən notariuslardan birinə aparıblar. Orada "Las Veqas" restoran kompleksini özləri ilə gətirdikləri Azad İsmayılovun adına rəsmiləşdiriblər. Cəmin Hacıyev bununla da kifayətlənməyib, iş adamına hesabına 115 min dollar köçürtdürüb. Bundan başqa, M.Məmmədovun qardaşı oğlunun adına olan "Mercedes C 300" markalı, qara rəngli, Az 90 ZD 650 nömrə nişanlı maşın müstəntiq Cavid Quluzadənin adına rəsmiləşdirilib. 2015-ci ilin oktyabrında MTN-də məlum "təmizləmə"lərdən sonra iş adamı məhkəməyə üz tutub. O, restoranının, maşınının və əlindən alınan 115 min dolların geri qaytarılması iddiası ilə Nərimanov Rayon Məhkəməsinə müraciət edib. Nərimanov Rayon Məhkəməsinin hakimi Abbas Əliyev iddianı araşdırıb və təmin edib. Hökmə görə 2015-ci ildə "Las Veqas" restoranının M.Mahmudovun adından A.İsmayılovun adına rəsmiləşdirilməsi haqda müqavilə ləğv olunub. Müstəntiq Cavid Quluzadə barəsində xüsusi qərardad çıxarılaraq Baş Prokurorluğa göndərilib.










Azərbaycan Respublikası adından
QƏTNAMƏ


Azərbaycan Respublikası
Bakı şəhəri
NƏRİMANOV RAYON MƏHKƏMƏSİ

Həmin hökmlə 2015-ci il sentyabrın 17-də M.Mahmudovun qardaşı oğluna məxsus avtomaşının C.Quluzadənin adına keçirilməsi haqda müqavilə də qanunsuz hesab edilərək ləğv olunub. 1981-ci il təvəllüdlü Cəmin Hacıyev "Texnikabank" rəhbərliyinə Beynəlxalq Bankdan transfer olunub. 2012-ci ildə baş tutan bu transfer vasitəsilə Cahangir Hacıyev "Texnikabank"ı nəzarətdə saxlayıb. Hökmdən narazı qalan qarşı tərəf apelyasiya şikayəti verib. Şikayətə Bakı Apelyasiya Məhkəməsində hakim Sidqi Məmmədovun sədrliyi ilə baxılıb və 8 dekabr 2016-cı il təmin edilməməsi haqda qətnamə çıxarılıb. M.Mahmudov deyir ki, həmin qətnamə qüvvəyə minsə də, onun əmlakları özünə qaytarılmır: "Eldar Mahmudovun müstəntiqi Cavid Quluzadə maşınımızı, restoranımızı əlimizdən alıb. Bizə qarşı faktiki quldurluq olub. Nərimanov, ardınca da Bakı Apelyasiya Məhkəməsi qərar verib ki, maşın da, restoran da mənə qaytarılmalıdır. Eldar Mahmudov Azərbaycan qanusnunlarını saymadığı kimi, onun müstəntiqi də saymır, məhkəmə qərarını icra etmir. Mən vitse-prezident Mehriban xanım Əliyevaya müraciət edirəm. Ondan kömək istəyirəm. Bu adamlar biz iş adamlarının əmlakını qəsb ediblər. İndi də Azərbaycan məhkəmələrinin, ölkəmiz adından çıxarılan məhkəmə qətnamələrini icra etmirlər, boş kağız sayırlar. Ümidimiz birinci xanımadır. Mehriban xanımın qəbuluna düşmək üçün müraciət etmişəm. Mən illərlə Rusiyada, Ukraynada qazandığım sərmayəni Azərbaycana gətirmişəm, burada iş qurumuşam. Bir günün içində Eldar Mahmudovun dəstəsi əmlaklarımızı əlimizdən alıb, indi də, geri qaytarmaq istəmirlər. Məhkəmələrin çıxardığı qətnamələrə də baxan yoxdur".

**Onu da qeyd edək ki, Nərimanov rayon Məhkəməsinin hökmünün icra edilməsi üçün bir sıra dövlət orqanlarına, o cümlədən DTX rəisi Mədət Quliyevə yenidən müraciət ünvanlayıb, xahiş edib ki, MTN müstəntiqinin əlindən aldığı əmlakları ona qaytarmaqda kömək etsinlər.**

**❑ E.MƏMMƏDƏLİYEV**

# MTN-in baş istintaqçısının məhkəmədə zərərçəkənlərə meydan oxumasının "sirri"

## Mövlam Şıxəliyevi cəsarətləndirən və arxayınlaşdıran səbəb; o, niyə azadlıqdadır?

**Ləğv edilmiş MTN-in Baş istintaq idarəsinin müstəntiqi Vüsal Ələkbərovun işi üzrə məhkəmə prosesində onun birbaşa rəisi olmuş Baş istintaq idarəsinin rəisi, general Mövlam Şıxəliyev ifadə verib. Məhkəmədə özünü son dərəcə arxayın, saymazyana aparan M.Şıxəliyevin kimə güvəndiyi, niyə bu qədər arxayın danışdığı suallar yaradır.**

Xatırladaq ki, Vüsal Ələkbərovun işi üzrə zərərçəkənlər hazırda fəaliyyəti dayandırılmış "Texnikabank"ın iri əmanətçiləridir. MTN bu banka basqın edib rəhbəri Etibar Əliyevi həbs edəndən sonra bankın iri əmanətçilərini də bir-bir tutaraq hədə-qorxu, işgəncə yoluyla onların milyonlarla dollarını alıb. İndi zərərçəkənlər vaxtilə Mövlam Şıxəliyevin onlardan aldıqları milyonların geri qaytarılmasını, generalın həbs olunmasını tələb edirlər.

M.Şıxəliyev isə məhkəmədə zərərçəkənlərlə sanki bu gün də istintaq idarəsinin rəisi kimi davranıb, kəskin mübahisələr edib. Zərərçəkənlər deyirlər ki, pul məsələsini şəxsən Mövlam Şıxəliyev onlarla müzakirə edib. Amma Şıxəliyev bu adamlarla görüşmədiyini deyib.

"Mövlam Şıxəliyevin otağında olmuşam. Mənə dedi ki, şefin göstərişi var, həbs edilməlisən. Mən Eldar Mahmudovu "OBXSS"də işləyəndən tanımışam. Mövlam əvvəl 1 milyon, sonra 700 min istədi, axırda 500 min dollara düşdü. Bu pulun 200 min dollarını Mövlama, 300 min dollarını isə Vüsala vermişəm", - zərərçəkən Namil Rzayev məhkəmədə general dindirilərkən belə deyib.

Şıxəliyev isə Eldar Mahmudovu "satmaqdan" imtina edib, rəhbərlikdən hər hansı qanunsuz göstəriş almadığını söyləyib. Bunun əksini deyə bilərdimi?


Mövlam Şıxəliyev

Suala M.Şıxəliyevin bioqrafiyasına, karyera pillələrinə atdığı addımlara nəzər salmaqla cavab axtaraq.

Eldar Mahmudov 2004-cü ildə milli təhlükəsizlik naziri postuna təyin olunandan dərhal sonra M.Şıxəliyev Milli Təhlükəsizlik Nazirliyinin İstintaq Baş İdarəsində xidmətə qəbul edilib. 2007-ci ilə qədər həmin idarənin 1-ci şöbəsinin rəisi, 2007-2008-ci illərdə Baş İdarəsinin rəis müavini, 2008-ci ildən 2015-ci ilədək rəis vəzifəsində işləyib. Tabeçiliyində rəis müavini Təhsin Ağayev, İbtidai İstintaq İdarəsinin rəisi Yasim Məmmədov, onun müavini Nadir Mustafayev, 2-ci şöbənin rəisi Vüsal Ələkbərov, onun müavini Vüqar Əliyev, 3-cü şöbənin rəisi Mahir Qasımov, onun müavini Samir Əliyev, şöbələrin mühüm işlər üzrə baş müstəntiqlər və müstəntiqləri olub. Eldar Mahmudovun yaxın adamı olmadan M.Şıxəliyev MTN-də yüksələ, general rütbəsi ala bilməzdi. Bu baxımdan onun Eldar Mahmudovun əleyhinə ifadə verməsini düşünmək sadəlövhlük olardı. Üstəlik M.Şıxəliyev yaxasını "MTN işi" üzrə istintaqdan kənar saxlaya bilib. Mövlam Şıxəliyev də Hilal Əsədov kimi gününü keçirir. "TexnikaBank" işində zərərçəkmiş Hüseyn Səfərov israrla dövlət orqanlarından Mövlam Şıxəliyevin həbsini tələb edib, amma onun şikayətləri havada qalıb. İş o yerə çatıb ki, sahibkar özünü M.Şıxəliyevin metronun "Sahil" stansiyasının üzərində inşa edilmiş evinin qarşısında benzin tökub yandıracağı kimi bəyanatla da çıxış etmişdi. Onun bəyanatında belə bir fikir də keçirdi: "Dəqiq bilirik ki, Mövlam Şıxəliyev Novxanıdakı villasından dənizi seyr edib kef çəkir, biz isə zəlil gündəyik"

Bu gün MTN-çilərin cinayət əməlləri nəticəsində hüquqları pozulmuş 65 sahibkarzərərçəkmiş şəxs qismində tanınıb. Bu insanları qorxudub infarkt və müflis vəziyyətinə gətirənlərin, demək olar, hamısı generallardır. Generallar dövlətin keşiyində dayanmalı olduqları halda, sahibkarlığa qarşı geniş cəbhə açıblar. Başçılıq edən də göz qabağında və azadlıqdadır: Onun adamları Hilal Əsədov, Mövlam Şıxəliyev də həmçinin. Rəsmilər bu adamların həbs edilməməsinin səbəbi ilə bağlı da hər hansı bir açıqlama verməyə tələsmirlər. 11 il ərzində Eldar Mahmudovun rəhbərliyi altında törədilən cinayətlərin tam araşdırılacağına ümidlər də yoxa çıxıb.

**Qeyd edək ki, M.Şıxəliyevin işçisi Vüsal Ələkbərov Cinayət Məcəlləsinin 182 (hədə-qorxu ilə tələbetmə), 294 (sübutları saxtalaşdırma), 311 (rüşvətalma) və 341-ci (hakimiyyətdən sui-istifadə etmə, hakimiyyət həddini aşma) maddələri ilə ittiham olunur. İttihama görə, o, iş adamlarını MTN-ə gətirərək, hədə-qorxu yolu ilə onların külli miqdarda pulunu ələ keçirib. Vüsal Ələkbərovun təxminən 1 milyon 270 min manat dəyərində əmlakının üzərinə həbs qoyulduğu bildirilir.**

**❑ E.MƏMMƏDƏLİYEV**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**





# İşğalçının təhrikçi davranışının arxasındakı "Rusiya izi"

Xocalı soyqırımına, Qarabağın işğalına ermənilərlə birgə həmmüəlliflik etmiş Rusiya Ermənistanı növbəti təxribata çəkə bilərmi? **Politoloq:** "İşğalçı ordu bu dəfə diz çökəcək..."

**Sabah Xocalı soyqırımının növbəti, 25-ci ildönümü qeyd ediləcək. Erməni hərbi caniləri və işğalçı qüvvələrini Rusiyanın 366-cı alayının birbaşa köməyi, daha dəqiqi, Moskvanın həmmüəllifliyi ilə törətdikləri bu qanlı faciə, kütləvi qətliam aktı heç vaxt xalqımızın yaddaşından silinməyəcək. Bəşəriyyət əleyhinə törədilmiş bu misilsiz qəddarlıq və vəhşilik aktı şübhəsiz ki, Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları nəticəsində yaranan Dağlıq Qarabağ münaqişəsinin ən qanlı səhifələrindəndir.**




Yada salaq ki, erməni vəhşiləri Xocalı soyqırımı Sumqayıt hadisələrinin ildönümü ərəfəsində məqsədli şəkildə törətmişdilər. Bununla onlar həm qisas almaq, həm də Azərbaycan xalqında, xüsusən də Qarabağ bölgəsində yaşayan yerli azərbaycanlı əhalidə xof yaradıb onu öz yurd yerlərindən daha sürətli didərgin salmaq niyyəti güdürdülər.

Xocalı soyqırımının fevrala təsadüf eləməsinin başqa bir motivi isə Dağlıq Qarabağda Azərbaycan əleyhinə separatçı hərəkatın da 1988-ci ilin fevralında başlaması ilə bağlı idi. Yəni, düşmən bununla bədnam ildönüm ərəfəsində daha bir "hərbi uğur" əldə eləməyi hədəfləmişdi. Lakin Azərbaycana qarşı 29 ildir davam edən bu dağıdıcı separatçılıq və işğalçılıq siyasəti ilk növbədə erməni xalqının özünə böyük məhrumiyyətlər bəxş edib, on minlərlə erməni mənasız torpaq iddiasının, "miatsum" adlı sərsəm ideyanın qurbanı olub.

Ermənilərin itkiləri indi də davam edir və problem ədalətli həllini tapmayınca şəkk-şübhəsiz, davam edəcək - həm də daha böyük miqyasda. Söhbət təkcə canlı itkilərdən getmir. Məsələ ondadır ki, ərazi bütövlüyümüzü tanımaqdan imtina edən Ermənistan üçüncü on ildir ki, haqq etdiyi izolyasiya şəraitindədir, iqtisadiyyatı dərin böhran keçirir. Hər il daha çox sayda əmək qabiliyyətli erməni ölkəsini birdəfəlik tərk edərək, Rusiyaya, başqa MDB ölkələrinə Türkiyəyə, Avropaya üz tutur. Rusiyanın marioneti olan, dənizlərə çıxışdan məhrum bir ölkədə üstəlik, korrupsiya ildən-ilə çiçəklənməkdədir. İşğalçı Ermənistan artıq ciddi şəkildə orduya çağırışçı problemi də yaşayır.

Aydındır ki, kriminal Sərkisyan rejimi Dağlıq Qarabağ məsələsində konstruktiv mövqe tutmayınca sadalanan neqativ proseslər getdikcə güclənəcək. Təsadüfi deyil ki, Serj Sərkisyanən hakimiyyəti dövründə ölkədən rekorda sayda erməni emiqrasiya edib. Şübhə yox ki, Azərbaycan bu proseslərə daim məxsusi təkan verib və verəcək.

Yeri gəlmişkən, aprel döyüşlərinin bir mühüm əhəmiyyəti də 4 günlük müharibənin eyforiya vəziyyətində olan erməni cəmiyyəti və özündənrazı erməni siyasi isteblişmentini silkələməsi oldu. Erməni toplumu belə bir dəqiq və ciddi siqnal aldı ki, Qarabağ müharibəsi heç də bitməyib və ərazilər qanuni sahibinə qaytarılmayınca Ermənistanda əmin-amanlıq, sakitlik və iqtisadi tərəqqi olmayacaq, erməni xalqı da heç vaxt rifaha və inkişafa ümid edə bilməyəcək.

Çünki cırtdan ölkənin tərəqqisi ortaq quru sərhədə malik olmadığı Rusiyanın marioneti olmaqda yox, ilk növbədə qonşu ölkələrlə - Azərbaycanla, Gürcüstanla, Türkiyə ilə dinc-yanaşı, əmin-amanlıqda yaşamasındadır. Erməni tərəfi boynuna alsa da, almasa da, acı həqiqət belədir ki, Ermənistanın inkişafı və tərəqqisi məxsusən Azərbaycanla birgə olmaqdadır. İşğalçı bu sərt reallığı nə qədər tez dərk eləsə, bir o qədər onun özü üçün, erməni xalqı üçün yaxşı olar.

***

Əfsus ki, nə Ermənistanın siyasi isteblişmenti, nə də bütövlükdə erməni toplumu bu acı gerçəyi qəbul eləməyə hazır görünmür. Daha çox da rəsmi İrəvan tam yanlış olaraq güman edir ki, Ermənistanın və erməni xalqının təhlükəsizliyi yalnızca Rusiya imperiyası ilə hərbi ittifaqda mümkündür. Lakin ötən 29 ilin acı təcrübəsi göstərdi ki, Kreml Dağlıq Qarabağ münaqişəsinin həllində maraqlı deyil və bu münaqişə ona sırf regiondakı geosiyasi maraqlarını qorumaqdan ötrü gərəkdir.

Bu fonda düşmən tərəfin Rusiyadan aldığı bir komplekt "İsgəndər" raket kompleksindən dolayı öyünməsi gülünc görünür. Eləcə də ermənilərin rusların köməyi ilə Azərbaycandan aprelin qisasını almaq yanğısı absurd və təhlükəlidir - ən əvvəl də özləri üçün.

"Ermənilər elə güman edirlər ki, rusların müəyyən təlimat və taktiki hazırlıqlarının köməyi ilə aprel savaşının qisasını ala, hətta Azərbaycanın geriyə qaytardığı torpaqlar məsələsində "uğurlar" əldə edə bilərlər". Bunu axar.az-a açıqlamasında sabiq dövlət müşaviri Qabil Hüseynli deyib. Politoloqa görə, Ermənistan bölgədə vəziyyəti məhz buna gərginləşdirir: "Bu, təkcə ermənilərin arzusu deyil, onları müdafiə edən müəyyən güc mərkəzlərinin də buna bənzər niyyətləri var. Vigen Sərkisyanın "İsgəndər" açıqlaması Azərbaycana qarşı şantaj və psixoloji təzyiq xarakteri daşıyır. Cəbhədə vəziyyətin gərgin olduğunu söyləyə bilərik. Bunun əsas səbəbkarı isə Ermənistandır. Ermənilər hazırda olduqca təhrikçi mövqedədirlər. Bütün bu addımlar Azərbaycan ordusunu cavab vermək məcburiyyəti qarşısında qoya bilər. Cəbhədə hər an lokal xarakterli toqquşma baş verə bilər".

**Bununla belə, politoloq hesab edir ki, separatçıların keçirdiyi qeyri-qanuni referenduma və Rusiyanın mövqeyinə baxmayaraq, proseslər Azərbaycanın xeyrinə inkişaf edir:** "Hazırkı geosiyasi şərait də bunu deməyə əsas verir. Çünki bölgədə başlayacaq yeni müharibə Moskvaya sərf etmir. İrəvan hələ də başa düşmür ki, toqquşmalar başlasa, Ermənistan ordusu bu dəfə diz çökəcək və Dağlıq Qarabağın daha böyük hissəsi azad ediləcək".

***

Əlbəttə ki, Azərbaycan Qarabağ ixtilafının dinc yolla həllini istəyir. Biz heç erməni gənclərinin də ölümünü arzulamırıq. Normalda müharibəni heç kəs arzulamaz. Ancaq nə edəsən ki, işğalçı Ermənistanda hakimiyyəti 19 ildir qəsb eləmiş və öz xalqını faktiki, girov saxlayan "Qarabağ klanı", kriminal Sərkisyan rejimi özünün radikal və absurd mövqeyi ilə nəinki Azərbaycana, heç erməni xalqına da seçim saxlamayıb.

**Ən betəri odur ki, İrəvan Moskvanın əlində alət olduğunun fərqinə varmaq istəmir. Bu isə ilk növbədə erməni toplumuna yeni və daha böyük fəlakətlər vəd edir. Çünki Rusiya ilə ittifaqda hələ heç bir xalq xoşbəxt, ölkə isə azad və müstəqil ola bilməyib. Erməni xalqı və Ermənistan da olmayacaq...**



## Müdafiə naziri Talış kəndi istiqamətində döyüşə şəxsən komandanlıq edib

**Azərbaycan Müdafiə Nazirliyi nazir Zakir Həsənovun və Baş Qərargah rəisi Nəcməddn Sadıqovun təmas xəttində sürətlə artan eskalasiya ilə bağlı cəbhə bölgəsinə srağagün başlayan səfəri ilə bağlı yeni məlumat yayıb.**

Musavat.com nazirliyin rəsmi saytına istinadən xəbər verir ki, məlumata əsasən Müdafiə Nazirliyi rəhbərliyinin cəbhəboyu zonaya davam edən səfəri zamanı əsas diqqət Ermənistan silahlı qüvvələrinin cəbhənin bütün istiqamətlərində təxribat törətmək cəhdlərinin qarşısının qoşunlarımız tərəfindən qətiyyətlə alınması üzrə tədbirlərin görülməsinə yönəldilib.

"Gecə saatlarında ön xətdəki bölmələrimizi yoxlayarkən Müdafiə Nazirliyinin rəhbərliyi düşmənin kəşfiyyat-diversiya qrupunun Talış və Gülüstan istiqamətlərində təxribat törətmək cəhdlərini müşahidə vasitələri ilə izləyib. Yerində verilən tapşırıqlar və dərhal görülən tədbirlər nəticəsində düşmən geri çəkilməyə məcbur edilib. Talış kəndini, ətraf əraziləri nəzarətdə saxlayan mövqelərdə, Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı kəndi istiqamətində yerləşən bölmələrdə olan nazirliyin rəhbərliyi düşmənin ön xətt mövqelərini müşahidə edib", - deyə məlumatda bildirilir.

Nazirlik onu da bildirir ki, işğaldan azad edilmiş ərazilərdə döyüş növbəsi çəkən şəxsi heyətlə görüşən müdafiə naziri şəxsi heyətin döyüşə hazırlıq səviyyəsini və mənəvi-psixoloji vəziyyətini yoxlayıb, həmçinin hərbi qulluqçuların sosial-məişət şəraiti ilə tanış olub. Ön xətdə xidmətdə fərqlənən bir qrup hərbi qulluqçuya qiymətli hədiyyələr təqdim etdikdən sonra nazirliyin rəhbər heyəti süfrə arxasında əsgərlərlə söhbət edib.

YENİ MÜSAVAT
N 43 (6657) 25 fevral 2017



# Etibarsız dünyanın Ranyerisi

Samir SARI

**Orta və ali məktəbdə oxuyanda ideoloji fənlərdən dərs keçən müəllimlərimiz bizə öyrədirdilər ki, kapitalist dünyası çox iyrəncdir, insanları istismar edir, şirəsini sorur, sonra lazımsız əşya kimi kənara atırlar.**

Etirazımız yox idi. Mənfur kapitalizm dünyasına nifrət edir, ədiblərin sözü ilə desək, onun zahiri parıltısı altında ikrahdoğurucu eybəcərliklərini görməyə çalışırdıq.

Düzdür, insanlardan faydalanmaq, sonra bir kənara atmaq xüsusunda öz sosialist ölkəmizdə də durum fərqli deyildi, burda da "dünənki işinə görə sağ ol, bugününə cavab ver" deyə məşhur bir demoqoji ifadə vardı. Hər il minlərlə adam, keçmişdə yaxşı xidmətlər göstərmiş, məsələn, şir öldürmüş kadrlar axırda bir dovşana görə kənara atılırdı, amma ideoloqlar deyirdilər ki, belə olmalıdır, bu, mənfur kapitalizm aləmindəki müvafiq hərəkətlə eyniyyət təşkil etmir.

Uzun illərdən sonra aydın oldu ki, xeyr, eyni şeydir, kapitalist, sosialist, hətta feodalist olmasına baxmayaraq, bütün quruluşlarda insanların əməyini istismar edir, ondan N qədər faydalanır, amma fayda verməyəndə dalından dəyirlər, gedir.

Budur, xəbər yayılıb ki, Klaudio Ranyeri "Lester"dən qovulub.

Futbol azarkeşləri yaxşı tanıyır, Ranyeri məşqçidir, indiyədək bir neçə komandanı ölkə çempionu və Çempionlar Liqasının qalibi edib.

Keçən il o, İngiltərə klubu "Lester"i ölkə çempionu edib. O "Lester"i ki, yarandığı gündən keçən 133 ildə cəmi bir dəfə, o da ötən il, o da Ranyerinin rəhbərliyi altında çempion olub. Bu komandanın futbolçuları əyinlərinə tuman-köynək geyəndən bu günə qədər premyer-liqaya çıxmaq və ertəsi il aşağı liqaya düşməklə məşğul olublar. Yalnız Ranyeri gələndən sonra "Lester" ardıcıl qələbə qazanmağın nə olduğunu bildi, baş üzərnə kubok qaldırmağın dadını anladı.

Ancaq bu il "Lester" liqada yaxşı çıxış edə bilmədi, keçən ilin çempionu hazırda turnir cədvəlində 17-ci yerdədir. Ona görə də Klaudio kişini vəzifəsindən uzaqlaşdırıblar. Yəni "dünənki işinə görə sağ ol, bugününə cavab ver" düsturu işə düşüb. Mənfur kapitalistlər!

Adamın yadına Ranyerinin rumıniyalı həmkarı Mirça Luçeskunun taleyi düşür. 72 yaşlı futbol mütəxəssisi indiyədək 13 komandada məşqçilik edib, çoxunda ölkə çempionluğu, kuboklar qazanıb. Ancaq 13-15 il öncə adamın başına qardaş Türkiyədə elə bir oyun açdılar ki, hələ də nəinki Mirçanın özünü, hətta bizim azarkeşləri də ağrıdır.

Məsələ belə olmuşdu. Luçesku 2002-ci ilin yayında "Qalatasaray"a gəldi, komanda Avropa Superkubokunu aldı, ardınca iki dəfə ölkə çempionu oldu, Çempionlar Liqasında tur adladı, amma klub rəhbərliyi onu işdən qovdu. O zaman "Qalatasaray"ın böyükləri "hər kəsin könlündəki hocanı gətirəcəyik" deyə pafoslu-pafoslu bəyanatlar verərək, "imparator" adı qoyduqları Fatih Terimi yenidən komandanın baş məşqçisi postuna gətirdilər. Luçesku bu davranışdan sarsıldı, qəhərlənib ağladı. Belə bir mütəxəssisin göz yaşlarına dözməyən "Beşiktaş" klubu Mirçanı Türkiyədən getməyə qoymadı, öz komandasının baş məşqçisi elədi.

Allah tərəfi, Luçesku etimadı doğrultdu, həmin il "Beşiktaş" ölkə çempionu oldu, Çempionlar Liqasında da xeyli qabağa getdi, oyun uduzmadı, hətta "Çelsi"ni Londonda məğlub etdi. Di gəl, türkün sözü, sezonun sonunda "Beşiktaş" rəhbərliyi də Luçeskunu qovdu. Uğurlu mütəxəssis yenə kövrəldi, doluxsundu və ağlamsınaraq mətbuata dedi ki, bir məşqçinin əldə edə biləcəyi ən böyük uğur komandasını çempion etməkdir, mən də etmişəm, ta nə edə bilərdim.

Xüləs, Mirça Luçesku Türkiyədən getdi, Ukraynaya yerləşdi, "Şaxtyor"un başına keçdi, onu əvvəlcə bir neçə dəfə ölkə çempionu etdi, sonra da Avroliqanın kubokunu aldı.

Luçeskunun dəyərini sonradan anlayan istanbullular onu yenidən ölkəyə qaytarmaq istədilər. Bir ara "Fənərbağça" da çox dil tökdü, amma rumın məşqçi İstanbula dönmədi, güman ki, növbəti dəfə ağladıla-ağladıla qovulmaqdan qorxdu.

**Uzun sözün kəsəsi, təkcə futbolda deyil, çox sahədə belədir. Nə qədər ki, adam fayda verir, yeri başdandır, dövranı dönürsə, xeyir gəlmirsə, adamı Ranyeri kimi edir, "di yeri, Ranyeri" deyirlər.**

# Bakı-Tbilisi-Qars dəmir yolu - Azərbaycanın önəmini artıram faktor

## Tamamlanmaqda olan layihə bu il istismara verilə bilər

**Bu il istismara verilməsi nəzərdə tutulan Bakı-Tbilisi-Qars dəmiryolu artıq əksər beynəlxalq səviyyəli danışıqların müzakirə mövzusuna çevrilib. Son olaraq Prezidenti İlham Əliyevin fevralın 23-də Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti Maroş Şevçoviç ilə görüşündə bu məsələ gündəmə gəlib.**




Tərəflərin müzakirəsində Azərbaycan ilə Avropa Komissiyası arasında enerji məsələləri ilə yanaşı, nəqliyyat dəhlizləri, o cümlədən Bakı-Tbilisi-Qars dəmir yolundan istifadə sahəsində əməkdaşlıq imkanları müzakirə edilib. Yeni Asiya-Avropa nəqliyyat dəhlizindən istifadə imkanlarından danışan Maroş Şevçoviç Avropa şirkətlərinin bu layihəyə cəlb olunmasının və bu məsələdə Avropa Komissiyasının mümkün dəstəyinin əhəmiyyətini vurğulayıb.

Görünən odur ki, yeni dəmiryolu xəttindən təkcə 3 tərəfdaş ölkənin deyil, beynəlxalq qurumların da gözləntiləri az deyil.

Bəs, görəsən Bakı-Tbilisi-Qars dəmiryolu xətinin Gürcüstan hissəsində işlər nə yerdədir? Xəttin tam şəkildə istismara verilməsi nə zaman baş tutacaq?

Bu barədə "Yeni Müsavat"ın suallarını cavablandıran "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin mətbuat xidmətinin rəhbəri Sevinc Qədirova bildirdi ki, təmsil etdiyi qurum müxtəlif beynəlxalq layihələrin fəal iştirakçısı olmaqla, onların həyata keçirilməsinə də ciddi yanaşır: "Bu yöndə XXI əsrin əsas tikintilərindən olan və təkcə üç ölkəni deyil, həmçinin onlarla ölkə arasında körpü rolunu oynayacaq Bakı-Tbilisi-Qars dəmir yolu xətti bağlantısının reallaşması istiqamətində işlər sürətlə davam edir. Bu il bağlantının istismara verilməsi gözlənilir. Bakı-Tbilisi-Qars dəmir yolu bağlantısının Gürcüstan hissəsində işlər tamamlanmaq üzrədir. Gürcüstan hissəsində 183 km-in 153 kilometrində, yeni Marabda-Axalkalaki sahəsində reabilitasiya, rekostruksiya və tikinti işləri, 30 kilometrində, yəni Axalkalaki-Türkiyə sərhədi (Kartsaxi) sahəsində isə tikinti işləri aparılıb.

S.Qədirova "Yeni Müsavat"a danışarkən onu da bildirdi ki, artıq bəzi sınaqların keçirilməsinə başlanılıb: "Bağlantının Gürcüstan hissəsindən Türkiyə sərhədinə kimi qatarların dizel ilə işləyən lokomotivlərlə bir neçə dəfə sınağı keçirilib. İşçi qatarları müntəzəm hərəkətdədir. Bütün yol boyunca lokomotivlər maneəsiz hərəkət edə bilirlər. Bu yaxınlarda Axalkalaki stansiyasındakı yüklü vaqonun təkər arabacıqlarının dəyişmə və iri-tonnajlı konteynerin vaqondan-vaqona götürülüb-qoyulması məntəqələrində qurğular uğurla sınaqdan keçirilib, sahə üzrə tamamlama işləri aparılır. Sərhəddə tikilən 4450 metr uzunluğunda tunelin Gürcüstan hissəsinə düşən 2070 metrində qazma işləri başa çatdırılıb, betonlama işlərinin yaxın aylarda başa çatdırılması nəzərdə tutulur".

Sevinc Qədirovanın sözlərinə görə, Azərbaycan Bakı-Tbilisi-Qars yeni dəmir yolu bağlantısı layihəsinə qoşulmaqla gələcəyə hesablanmış daha bir addım atdı: "Bu xəttin gətirə biləcəyi bütün iqtisadi dayaqlarla yanaşı, Bakı-Tbilisi-Qars tranzit daşımaların mərkəzinə çevrilən Azərbaycanın regionda söz sahibi olmasını təsdiqləyən bir faktor kimi çox önəmlidir".

Xatırladaq ki, 21 noyabr 2007-ci ildə Gürcüstanın Tetri-Skaro rayonunda - Marabda stansiyasında Bakı - Tbilisi - Qars dəmir yolu bağlantısının Gürcüstan hissəsinin, 24 iyul 2008-ci ildə isə Türkiyənin Qars şəhərində Bakı - Tbilisi - Qars bağlantısının Türkiyə hissəsinin tikintisinə start verilib. Proqnozlar göstərir ki, bu dəmir yolu xətti vasitəsilə ilk illərdə 5 milyon ton, növbəti illərdə isə 15 milyon tona qədər yükün daşınması mümkün olacaq.

Mətbuat xidməti rəhbərinin sözlərinə görə, gələcəkdə Bakı-Tbilisi-Qars marşrutu üzrə hərəkət edəcək sərnişin qatarları üçün Azərbaycan tərəfi İsveçrənin "Stadler" şirkətinə 30 ədəd yataq tipli müasir vaqon sifariş edib.

**Qeyd edək ki, bu günlərdə Bakı-Tiflis- Qars dəmir yolu layihəsinin önəmi bir çox mötəbər tədbirlərdə vurğulanıb. Gürcüstanın baş naziri Giorgi Kvirikaşvili 53-cü Münhen Təhlükəsizlik Konfransında Cənubi Qafqazda regional əməkdaşlıq mövzusunda müzakirələr çərçivəsində bildirib ki, bu xəttin tikintisi Azərbaycan, Gürcüstan və Türkiyəni birləşdirir.**

❑ Nərgiz LİFTİYEVA

# Sabunçu sakinləri həyətlərində gəzməyə yer tapmırlar

## İcra hakimiyyəti problemin tezliklə həll olunacağını vəd etdi





**Sabunçu rayonu Bakıxanov qəsəbəsi, Sülh küçəsi 14/2 ünvanında yerləşən binanın sakinləri fevralın 24-də rayonun icra hakimiyyətinin qarşısında aksiya keçiriblər. Sakinlər yaşadıqları binanın həyətində icra hakimiyyəti tərəfindən aparılan tikinti işlərindən narazıdırlar. Onlar bildiriblər ki, aparılan tikinti işlərinin nəticəsində yolları bağlanıb, uşaqlarının oynaması üçün həyətdə heç bir yer qalmayıb.**

Problemi işıqlandırmaq üçün yuxarıda qeyd etdiyimiz ünvanda olub, sakinlərin narazılıqlarını dinlədik.

Biz orada olduğumuz zaman binanın demək olar ki, bütün sakinləri tikinti aparılan yerin ətrafına toplaşıb, buna mane olmağa çalışırdılar.

**Sakin Fəridə Əliyeva bildirdi ki, 1978-ci ildən Sülh küçəsi 14/2 ünvanında yerləşən binada yaşayır:**

"Bu ərazidə 1987-ci ildə mərasim evi tikdilər. Bəzən burada hətta toy da edirdilər. Sonra isə baxımsızlıqda tikili dağıldı. İndi isə Sabunçu rayon İcra Hakimiyyətinin nümayəndələri binanın həyətini tamamilə dəmir hasara alıb, tikinti işləri aparırlar. Binanın qarşısı avtomobil yoludur və günün hər saatı buradan avtomobillər keçir. Sakinlər indi tikinti aparıldığı yerdə istirahət edirdilər, uşaqlarımız orada oynayırdılar. Eyni zamanda buradan keçib, uşaqları məktəbə aparırdıq. Hazırda isə hər tərəfi hasara alıblar və tərpənməyə yerimiz yoxdur. Deyirlər ki, burada mərasim evi tikiləcək. Bizə mərasim evi lazım deyil. Kiminsə də yaxını rəhmətə gedəndə, çadır kirayələyib, məclisini qurur. Bütün bu məsələlərlə bağlı Sabunçu rayon İcra hakimiyyətinin qarşısında aksiya keçirdik. Aksiyadan qayıdanda icra başçısı Adil Vəliyev qarşımıza çıxdı. Ona dərdimizi dedik. İcra başçısı bizə bildirdi ki, orada mərasim evi tikilir. Biz də bildirdik ki, bizə mərasim evi lazım deyil. Ora iki binanın həyətidir. Hər tərəf də maşın yoludur. Bu ərazidə park, uşaqların oynaması üçün yer olmalıdır. Bəs bu uşaqlar harada oynasınlar. İcra başçısı da bizə bildirdi ki, tikinti işləri dayandırılacaq və hasar dərhal söküləcək. Ancaq tikinti aparan şəxslər söylədilər ki, bizə işin dayandırılması ilə bağlı tapşırıq verilməyib. Ona görə də heç bir işi dayandırmırıq".

Sakinlər bildirdilər ki, burada mərasim evini tikib, pullu formada başqalarına icarəyə verməyi düşünürlər. Buna görə də tikinti dayanmayana qədər mübarizələrindən çəkinməyəcəklər.

Sakin Zülfiyyə İbrahimova da bildirdi ki, ailəsində xəstə var və yolu hasarladıqları üçün xeyli əziyyət çəkirlər:

"Bacımın uşağı xəstədir. Bunlar da pilləkəni hasara alıblar. Bəs bu uşağı necə aşağı endirək? Binada ürək əməliyyatı keçirən, səhhətində problemi olan şəxslər var. Onlar həyətə düşüb hara getsinlər? Harada otursunlar? Binanın hər tərəfi yoldur. Bəyəm iki binanın heç olmasa bir həyəti olmalıdır, yoxsa yox?"

*Sakinlər söylədilər ki, tikinti işləri dayanmasa yolu kəsib, qurulan hasarı söküb, aksiyalarına davam edəcəklər.*

Məsələ ilə bağlı **binanın Mənzil İstismar Sahəsinin müdiri Əlixan Məmmədov**un da mövqeyini aldıq. Ə. Məmmədov "Yeni Müsavat"a bildirdi ki, sakinlərin istəkləri icra hakimiyyəti tərəfindən nəzərə alınacaq və onların istəklərinə uyğun şəkildə qərar veriləcək:

"Burada əvvəl bərbad şəkildə mərasim evi olub. İndi isə ərazidə 14/1 və 14/2 binalarının sakinləri üçün mərasim evinin tikilməsi nəzərdə tutulub. Burada yaşayan sakinlər üçün həmin mərasim evi pulsuz olacaqdı. Bunu da binanın sakinləri istəmirlər və iradlarını bildirirlər. Onların iradları nəzərə alınıb və icra başçısı tərəfindən müvafiq tapşırıq verilib ki, camaatın haqlı şikayətlərinə baxılsın. Artıq ərazidə tikinti işləri də dayandırılıb".

❑ Əli RAİS
Fotolar müəllifindir

YENİ MÜSAVAT
N 43 (6657) 25 fevral 2017

# Dəfələrlə məhkum edilmiş qadının yenidən həbsi tələb olunur

## Orucovlar ailəsi: “Nina İbrahimovanın cinayət tərkibli əməli ibtidai istintaq zamanı tam sübuta yetirilsə də...”



**“Ölkə daxilində müraciət etmədiyimiz və qəbulunda olmadığımız dövlət orqanı qalmayıb. Problemimizi ölkə başçısının nəzərinə çatdıra bilmirik” - Nərimanov rayonu, Təbriz küçəsində 94 saylı ünvanında yaşayan Orucovlar ailəsi qonşuluqda yaşayan Nina İbrahimovanın və ailəsinin qanunsuz hərəkətləri və hücumları nəticəsində sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilmirlər. Hətta normal yaşamaq imkanından məhrum olunublar.**

Bu səbəbdən də ölkə rəhbərliyinə, hüquq mühafizə orqanlarının rəhbərlərinə açıq məktub yazmaq qərarına gəliblər: “Ailəmizə qarşı xuliqanlıq niyyəti ilə cinayət törətmiş Bakı şəhər sakini Nina İbrahimovanın ölkənin hüquq-mühafizə orqanlarında himayəçiləri var. Belə ki, təqsirləndirilən şəxs Nina İbrahimovanın ailəmizə qarşı törətdiyi cinayət əməli istintaq orqanı tərəfindən tam sübuta yetirilib və ittiham aktı tərtib olunaraq baxılması üçün Nərimanov Rayon Məhkəməsinə göndərilib. Məhkəmənin hakimi Rəşad Abdulov ilkin hazırlıq iclasında işin baxılmasına xitam verərək cinayət işini prokurora qaytardı. Hakimin qənaətinə görə müstəntiq protokolda prosessual pozuntuya yol verib.

İşi geri qaytardığı zaman məcburi şəkildə CPM-nin 307.1-ci maddəsinə uyğun olaraq müstəntiq barəsində xüsusi qərar çıxarmalı idi. Lakin çıxarmadı. İşin geri qaytarılmasından artıq 6 ay keçməsinə baxmayaraq hələ də işin məhkəməyə göndərilməsi təmin olunmur, süründürməçilik və şərləmə üsullarına əl ataraq işi bizim əleyhimizə çevirib əsl cinayətkarın əməllərini ört basdır etməyə çalışırlar. Təqsirləndirilən şəxs dəfələrlə məhkum olunmuş Nina İbrahimovanın cinayət tərkibli əməli ibtidai istintaq zamanı tam sübuta yetirilsə də, bəlli olmayan səbəblərdən faktiki olaraq bu, günədək məhkəmə tərəfindən mühakimə olunmur. Xahiş edirik bu cinayət işini ciddi nəzarətinizə alaraq təqsirləndirilən Nina İbrahimova və onun ailə üzvləri Rəbiyyə və Anar İbrahimovların cinayət məsuliyyətinə cəlb edilmələrini təmin edəsiniz. Nina İbrahimovanın oğlu Anar İbrahimov 2015-ci il sentyabrın 21-də sahibkar Taleh Qasımovu, həmçinin Sevindik Orucovu döyüb. Bununla bağlı hüquq mühafizə orqanlarına müraciət olunub. Lakin Anar İbrahimov istintaqın çağırışlarına əhəmiyyət verməyib. Bundan sonra Anar İbrahimov yenə də öz cinayət əməllərini davam etdirib. 15 noyabr 2015-ci ildə yenidən Orucovlara qarşı xuliqanlıq hərəkətləri edib. Və yenə də istintaqa getməkdən yayınıb. Buna görə də barəsində məcburi gətirilmə qərarı çıxarılıb. Nərimanov rayon Polis İdarəsinin əməkdaşları 16 aprel 2016-cı il tarixdə avto-yuma məntəqəsinin yerləşdiyi əraziyə gəliblər. Orada olan Anar İbrahimovu istintaqa dəvət etsələr də, o buna əhəmiyyət verməyib, üstəlik Nina, qızı Rabiyyə və oğlu Anar İbrahimov polislərə hücum çəkiblər. Onların poqonlarını cırıb, polislərə xəsarət yetirib, papaqlarını vurub ayaq altına salıblar. Bu faktla bağlı Cinayət Məcəlləsinin 315.2-ci - hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə maddəsi ilə cinayət işi başlanıb. Və cinayət işinə naməlum səbəbdən xitam verilib. Orucovlar N.İbrahimovanın nəhayət ki, cinayət məsuliyyətinə cəlb olunmasını, ədalətin bərpa edilməsini tələb edirlər.

❑ E.MƏMMƏDƏLİYEV

# Yeganə oğlu avtoqəzada ölən ata günahkarlara cəza tələb edir

## Cəmşid Rzaquliyev: “Bizdən bir üzr belə istəmədilər”

**Pirallahı Rayon İcra hakimiyyətinin işçisi Manaf Manafovun törətdiyi ölümlə nəticələnən yol-qəza hadisəsi araşdırılmır. İş üzrə zərərçəkmiş Cəmşid Rzaquliyev deyir ki, yeganə oğlunun ölümü ilə nəticələnən hadisə ilə bağlı müraciət etmədiyi ünvan qalmayıb.**



“2 sentyabr 2016-cı ildə oğlum Tariyel Rzaquliyev Qala-Dübəndi yolundakı yol keçidi üzərindən keçərkən Manaf Manafovun (özü də maşında olmaqla) xidməti istifadəsində olan Az 10 AS 649 dövlət nömrə nişanlı nəqliyyat vasitəsi ilə vurularaq (bu gündə bizdə şübhə var ki, sükan arxasında o özü olub) həyatına son qoyulub” -deyə Cəmşid Rzaquliyev bildirib.

**Onun sözlərinə görə, hadisəni törətdikdən sonra maşını saxlamayıblar:** “Sonradan nə fikirləşiblərsə, 2-3 yüz metr aralıda saxlayıb, geri dönüblər. Uşağa dərhal ilkin yardım etmək əvəzinə telefonla özlərinə kömək çağırıb, insanlığa xas olmayan bir hərəkətlə oradan uzaqlaşıblar. Bunu görənlər - hadisə yerinin yaxınlığındakı 981 saylı hərbi hissənin zabitləri hərbi hissənin sanitar maşını ilə uşağı götürüb, sonra da dediklərinə görə, yarıyolda təcili yardım maşınına köçürüb, Mərdəkanda morq deyilən bir yerə çatdırıblar. Manaf Manafov maşında olanlarla birgə bizdən bir üzr belə istəmədilər, bir təsəlli belə vermədilər... Təəssüf ki, bu günə kimi əsl cinayətkarın üzə çıxarılması yönündə heç bir əməli tədbir görülməyib. Bizi ən çox narahat edən digər məsələ isə, hadisədən aylar ötməsinə baxmayaraq, Manaf Manafov haqda YAP mərkəzi aparatına və şəxsən Pirallahı rayon İcra Hakimiyyətinin Başçısı Vasif İmanova indiyə kimi etdiyimiz müraciətlərdən dolayı onun barəsində heç bir tədbir görülməməsidir”.

**Şikayətçiyə görə, M.Manafova havadarlıq edən icra başçısı Vasif İmanovdur:** “Təəssüf ki, cənab prezidentin bütün çıxışlarında zaman-zaman ifadə etdiyi ”məmur və onların övladlarının özbaşınalıqları və qanuna zidd əməlləri ən ağır cəza ilə cəzalandırılmalıdır" fikiri də Vasif İmanov tərəfindən diqqətə alınmır. Diqqətə alınsa idi, maşında olanlar bu günə kimi Vasif İmanov tərəfindən qorunaraq vəzifələrində saxlanılmazdılar. Biz hadisənin Pirallahı rayonunda baş verdiyini və həmin rayonun icra başçısı da daxil olmaqla icra strukturlarının bu məsələdə laqeydliyini görüb oğlumun üç mərasiminin ertəsi günü Vasif İmanovun qəbulunda olduq. Görüşdə başçının müavinlərindən Vəzir Səfixanov, köməkçisi, yerli polis və prokurorluğun başçıları da iştirak edirdi. Danışıq zamanı icra başçısı hər vəchlə cinayəti törədənlərin müdafiəsi yönündə mülahizələr və məsəllər çəkməklə məşğul idi. Sanki bir gəncin taleyindən söhbət getmirdi. O bu hadisəni “yuxarılara” çatmamasını məsləhət edir və guya ailəyə maddi köməklik göstərilməsini özü də daxil olmaqla hadisəni törədənlərə tövsiyə edirdi. Vasif İmanovun öz iş otağında qurduğu “məhkəmə”də hadisə zamanı maşında olanlardan Həsən Niftəliyev sorğularkən (icra hakimiyyətinin işçisidir və bu gün də vəzifəsində saxlanılır), onun qorxudan titrədiyini və danışıqlarında baş-ayaq vurduğunu görən Vasif İmanov hətta bizim yanımızda onu kobud şəkildə təhqir də etdi. Təəssüf ki, sonrakı gedişat bütün bu eyibəcərliklərin davamı oldu ki, bu da sükan arxasında Manaf Manafovun olma ehtimalını da, bizim şübhələrimizi daha da artırmış oldu".

**C.İrzaquliyev sonda ölkə prezidentinə müraciət edərək oğlunun ölümündə suçlu olan şəxslərin cəzaya çatdırılması üçün müvafiq göstərişin verilməsini istəyib.**

❑ ELŞƏN



# Əlil-arestant ədalət axtarmaqda davam edir

## Rauf Sultanov Ali Məhkəməyə etiraz edir

**Uzun müddətdir ədalət axtaran əlil-arestant Rauf Sultanov bu dəfə Ali Məhkəməyə kasasiya şikayəti ilə müraciət edib. Şikayətin araşdırılması hakim Əli Seyfəliyevin icraatına verilib. Məlum olub ki, əvvəllər iş üzrə hakimlərdən biri Əli Seyfəliyev olub və bu əsasla hakim öz-özünə etiraz verib.**

Bundan sonra şikayətin araşdırılması hakim Qəhrəman Allahverdiyevə həvalə olunub. R.Sultanov əlavə kassasiya şikayətinin Q.Allahverdiyev tərəfindən araşdırılmasına etiraz edir: “Ali Məhkəmənin şikayətimin Qəhraman Allahverdiyevin baxması qərarına etiraz edirəm. Məhkəmənin Cinayət Kollegiyasının 2 noyabr 2016-cı il tarixli qərarından əlavə kassasiya şikayəti vermişəm. Həmin şikayət 19 yanvar 2017-ci ildə qəbul edilib. Şikayətimi Ali Məhkəmənin sədri Ramiz Rzayev Cinayət Kollegiyasının hakimi Əli Seyfəliyevin icraatına verib. Bundan sonra hakim barəmdəki cinayət işinin materiallarını Xəzər Rayon Məhkəməsindən tələb edərək götürüb. İş materiallarına baxış keçirilən zaman müəyyən olunub ki, hakim Əli Seyfəliyev eyni iş üzrə digər prosesdə hakim qismində iştirak edib. Bu səbəblə də hakim Əli Seyfəliyevin işə baxması istisna olunur. Seyfəliyev özünə qarşı etiraz verib və iş onun icraatından götürülüb”.

R.Sultanov deyib ki, bundan sonra iş Ali Məhkəmənin Cinayət Kollegiyasının deyil, Mülki Kollegiyasının hakimi Qəhrəman Allahverdiyevə həvalə olunması haqda qərar verilib: “Etirazım işə Mülki Kollegiyanın hakimi Qəhraman Allahverdiyevin baxmasındadır. Onun Mülki Kollegiyanın hakimi olaraq Cinayət Kollegiyasının səlahiyyətlərinə aid olan cinayət işinə baxması düzgün deyil. Mən işə Mülki Kollegiyanın hakimi baxacağı təqdirdə ədaləti qərarın çıxarılacağını gözləmirəm. Cinayət Kollegiyanın kifayət qədər təcrübəli hakimləri var, iş onlardan birinin icraatına verilə bilərdi. Cinayət işinin Mülki Kollegiyaya nə aidiyyatı var? Şikayətimlə bağlı atılan bu addım nəticənin ədalətsiz olacağına şübhələr yaradır. Ona görə də qərara etiraz edirəm”.

**Qeyd edək, R.Sultanova Cinayət Məcəlləsinin 178-ci (dələduzluq) maddəsi ilə ittiham irəli sürülüb. O, ittihamı qəbul etmir, qondarma olduğunu, cinayət işində saxtakarlıqlara yol verildiyini bildirir.**

❑ E.MƏMMƏDƏLİYEV

YENİ MÜSAVAT
N 43 (6657) 25 fevral 2017

# “Lotu Quli”nin yeznəsini mühakimə edən hakim işdən uzaqlaşdırıldı

**“Lotu Quli” ləqəbli kriminal avtoritet Nadir Səlifovun yeznəsi Vidadi Hüseynov Bakıda hakim qarşısına çıxarılıb. Musavat.com-un məhkəmə prosesində iştirak edən müxbiri xəbər verir ki, V.Hüseynov narkotik vasitələrin qanunsuz dövriyyəsində təqsirləndirilərək həbs edilib.**



Bakı Ağır Cinayətlər Məhkəməsində cinayət işinin hazırlıq iclası hakim Əfqan Hacıyevin sədrliyi ilə baxılıb.

Məhkəmədə V.Hüseynovun anket məlumatları dəqiqləşdirilib. Cəlilabaddan olan V.Hüseynov 3 uşaq atasıdır. Onun 10, 14 və 16 yaşında övladları var.

V.Hüseynovun vəkili hazırda həbsdə olan MTN generalı Akif Çovdarovun da vəkili olan Kamandar Nəsibovdur.

Məhkəmənin gedişində ilginc məqamlar ortaya çıxıb. Prokuror Fərid Nağıyev çıxış edərək hakimə etiraz edib. F.Nağıyev hakim Əfqan Hacıyevin işdən kənarlaşdırılmasını tələb edib.

Prokuror vəsatətini əsaslandırarkən bildirib ki, hakim Əfqan Hacıyev 2005-ci ildə vəkillik fəaliyyəti ilə məşğul olarkən Vidadi Hüseynovun qohumu Nadir Səlifovun müdafiəçisi olub.

“Vidadi Hüseynovun həyat yoldaşı Nadir Səlifov və Müşfiq Səlifovun bacısıdır. Hansı ki, Nadir Səlifov və qeyrilərinin Cinayət Məcəlləsinin 182.3.1 və digər maddələri ilə məhkum edilmələrinə dair cinayət işi üzrə Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmədə işə baxılmış və məhkəmənin 7 oktyabr 2005-ci il tarixli hökmü ilə həmin şəxslər müxtəlif müddətlərə azadlıqdan məhrum ediliblər. Həmin şəxslər barəsində verilən apellyasiya şikayətlərinin sürətindən, habelə Apellyasiya Məhkəməsinin 31 iyul 2006-cı il tarixli qərarından görünür ki, Nadir və Müşfiq Səlifovların müdafiəçiləri Kamandar Nəsibov və Əfqan Hacıyev də olub. Qeyd edilənlərdən göründüyü kimi bir neçə məhkəmə instansiyasında Vidadi Hüseynovun qayınlarının müdafiəsini həyata keçirmiş Əfqan Hacıyevə hazırkı iş üzrə sədrlik həvalə edilib. Yuxarıda göstərilənlərdən göründüyü kimi, Hakim Əfqan Hacıyevin bu iş üzrə maraqlı olmasını sübut edən dəlillər mövcuddur. Bunlara əsas olaraq hakimə etiraz edirik”- deyə prokuror vəsatətini əsaslandırarkən qeyd edib.

Hakim Əfqan Hacıyev isə bu işdə heç bir marağının olmadığını və vəsatətin təmin edilməsinə etiraz etmədiyini deyib.

Vəkil Kamandar Nəsibov isə vəsatətin təmin edilməməsini istəyib və bildirib ki, Vidadi Hüseynov Nadir Səlifovun yaxın qohumu hesab edilə bilməz: “Əslində dərinə getsən Azərbaycanda hamı bir-biri ilə qohumdur. Belə çıxır ki, hakim heç bir işə çıxmamalıdır? Bu vəsatət əsassızdır. Təmin edilməməsini isrəyirik”.

**Təqsirləndirilən Vidadi Hüseynov da vəkili ilə razı olduğunu, hakimin dəyişdirilməsini istəmədiyini deyib.**

Prokurorun vəsatəti hakimlər - Fikrət Qəribov və Rasim Sadıqovun iştirakı ilə müşavirədə müzakirə edilib. Müşavirədən qayıdan hakimlər müşavirənin nəticəsini elan edib. Hakim Fikrət Qəribov deyib ki, prokurorun vəsatəti təmin edilir və hakim Əfqan Hacıyev işdən kənarlaşdırılır. İşə yeni hakim təyin olunanadək qeyri-müəyyən vaxta qədər təxirə salınıb.

İttiham aktına əsasən, V.Hüseynovun barəsində Cinayət Məcəlləsinin (CM) 234.1-ci (satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə və ya saxlama) maddəsi ilə cinayət işi başlanılıb və Sabunçu Rayon Məhkəməsinin qərarı ilə üç ay müddətinə həbs qətimkan tədbiri seçilib. Cinayət işi Sabunçu Rayon Prokurorluğunda araşdırıldıqdan sonra məhkəməyə göndərilib.

Daha sonra V.Hüseynov barəsində CM-nin 234.4.3-cü (qanunsuz olaraq narkotik vasitələri, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma, külli miqdarda törədildikdə) maddəsi ilə ittiham irəli sürülüb.

**Xatırladaq ki, ötən il Səbail rayonunda “Bulaq” restoranında kriminal qruplaşmaların üzvləri arasında silahlı atışma olmuşdu. Vidadi Hüseynov və onlarla kriminal aləmə yaxın olduğu deyilən şəxslərin saxlanılması həmin ərəfəyə təsadüf edir.**

❑ **İlkin MURADOV**

**ÖZƏL TİBBİ SAHƏDƏ 20 İLLİK TƏCRÜBƏ!**
**Xəstəlikdən əzab çəkən insanlara**
**Əsasən Kişilərə!**
**Diqqət!!! Axırıncı Şans!!!**

**Azərbaycanda və yaxud xaricdə diaqnozun təsdiqi və tam müalicəsi mümkün olmayıbsa, doktor VAİZ SƏMƏDOV şəxsi tibbi metodikası ilə Sizin uğurlu və daha qarantili olaraq aşağıdakı xəstəliklərinizi müayinə və müalicə edə bilər.**

- ✳ Diaqnozu bilinməyən ağır hallar;
- ✳ Xərçəngə şübhəli olan prostat düyünlü adenoması. Prostatitlər;
- ✳ Cinsi zəiflikdən impotensiyadək, marağın və aktların azalması;
- ✳ Vaxtından tez toxum ifrazatı (səbəbdən asılı olmayaraq)
- ✳ Toy gecəsinin uğursuzluqları (kişi tibbi problemlər)
- ✳ Sidikdə və spermada qan;
- ✳ Spermanın azalması, itməsi;
- ✳ Kişi cinsi orqanın birdən əyilməsi, balacalaşması;
- ✳ Oğlan uşaqlarında cinsi orqanların (penisin və xayaların) yaşa görə balaca olması;
- ✳ Ailədə olan hormonal və infeksion səbəbli sonsuzluq;
- ✳ Tala-tala və hərtərəfli saçların tökülməsi;
- ✳ Gecə-gündüz uşaq və böyüklərdə sidik aktları pozulmaları;
- ✳ Baş-boyunda, onurğa-qılçaqlarda, qollar-ayaqlarda, qasıq-xayalarda ağrılar;
- ✳ Psixo-nevroloji gərginlik, yuxusuzluq, qorxu, yaddaşın azalması və digər qəribə olan şikayətlər.
- ✳ Zöhrəvi xəstəliklərdən sonra qalıqlar və ağırlaşmalar

**D-r V.Səmədovun əsas tibbi prinsipi - keyfiyyətli və təkrarsız müalicə aparmaq üçün xəstəliyin əsl və bütün səbəblərini aşkar etmək zəruridir.**

*Qəbula yazılmaq və ünvanı öyrənmək üçün saat 11-dən 23-ə dək, **(050) 213-88-05** nömrəsinə, **d-r Vaiz Səmədova** zəng etmək olar.*

Qəbul növbə ilə hər gün saat 12-dən sonra başlayır.



## Sürücülərə xəbərdarlıq - iyulun 1-dək telefon nömrənizi ASAN Xidmətə təqdim edin

### Sığortası olmayan sürücülər isə MMX vasitəsi ilə cərimələnəcək

**Artıq rəsmi dərc olunmuş və martın 1-dən qüvvəyə minəcək yeni İnzibati Xətalar Məcəlləsi sürücülərin törətdiyi və elektron protokolla rəsmiləşdirilən qayda pozuntuları sırasına icbari sığortanın olmamasını da əlavə edib. Avtosfer.az-ın məlumatına görə, Məcəllənin 122.1-ci maddəsində göstərilir ki, nəqliyyat vasitəsi sahibinin öz mülki məsuliyyətini icbari qaydada sığorta etdirmədiyi halda da DYP-nin Mərkəzi İnformasiya Sistemi tərəfindən avtomatik qaydada elektron protokol (MMX) tərtib ediləcək. Başqa sözlə, öz mülki məsuliyyətini sığortalamayan sürücülər bundan sonra həmin xətaya görə də MMX protokollar alacaqlar.**

Bu yeniliyin həyata keçirilməsi üçün İcbari Sığortalar Bürosunda avtonəqliyyat vasitələrinin icbari sığortasına dair məlumat bazası DYP-nin Mərkəsi İnformasiya Sistemi ilə inteqrasiya olunmalıdır. Belə inteqrasiyadan sonra sahibinin icbari sığortası olmayan avtomobil DYP-nin nəzarət kameralarının qarşısından keçdikdə avtomatik olaraq elektron protokol tərtib olunacaq və sürücüyə göndəriləcək. Sürücülər buna indidən hazırlaşmalıdırlar. Çünki sığorta şirkətləri də bu işdə ciddi marağa malikdirlər və ona görə də bu qaydada MMX-ların tətbiqi üçün xırda texniki problemlər ən qısa müddətdə həllini tapacaq. Nəzərə almaq lazımdır ki, avtonəqliyyat vasitəsi sahibinin mülki məsuliyyəti icbari qaydada sığortalanmayıbsa və ya sığorta müqaviləsinin müddəti bitibsə, həmin avtomobil yol hərəkətində iştirak edə bilməz. İcbari sığorta olmadan nəqliyyat vasitəsinin istifadə edilməsinə görə fiziki şəxslər 50 manat, vəzifəli şəxslər 100 manat, hüquqi şəxslər 300 manat cərimə edilir.

Bu arada BŞDYP-nin sözçüsü Vaqif Əsədov da sürücülərə xəbərdarlıq edib. Belə ki, Bütün nəqliyyat istifadəçiləri mobil telefon nömrələrini 2017-ci il iyulun 1-dək Baş Dövlət Yol Polisi və ASAN xidmətə təqdim etməlidir.

Bununla bağlı metbuat.az-a açıqlama verən Vaqif Əsədov bildirib ki, bu addım sürücüləri cərimələrindən xəbərdar etmək məqsədilə atılıb:

“Təbii ki, telefon nömrələrinin verilməsi o deməkdir ki, ASAN Xidmət tərəfindən hər kəsə vaxtlı-vaxtında sms, yaxud da zəng vasitəsi cərimələr barədə məlumat veriləcək”.

YENİ MÜSAVAT
N 43 (6657) 25 fevral 2017

# Tanınmış astroloqlar NASA-nın 7 planet iddiasından danışdılar

**ABŞ-ın NASA kosmik agentliyi Günəş sistemindən 40 işıq ili məsafəsində Yerə bənzəyən 7 yeni planetin aşkar edildiyini bəyan edib. Bütün planetlər TRAPPİST-1 ultra-soyuq qırmızı cırtdan ulduzunda aşkar edilib. Ölçüsünə görə Yerlə müqayisə edilən bu planetlər maye halında suyun tapılması üçün yararlıdır. TRAPPİST - 1 ətrafında fırlanan 3 planetdə isə nəzəri olaraq həyat ola bilər. "İkinci Yerin aşkar edilməsi "əgər" deyil, "nə zaman" sualını doğurur", - deyə NASA kosmik agentliyinin direktorunun müavini Thomas Zurbuchen Washingtonda keçirilən mətbuat konfransında bildirib.**

"Planetlərin hamisi bir-birinə, ulduzlara çox yaxındırlar və Yupiter ətrafındakı aya bənzəyirlər. Bununla yanaşı ulduz o qədər az və o qədər soyuqdur ki, planetlərdə maye halında suyun və həyatın olması mümkündür", - deyə NASA-nın digər nümayəndəsi Michael Gieon açıqlayıb.

Astronomların danışdıqlarına görə planetlər "Spitcher" kosmik teleskopunun köməyilə aşkar edilib. Bundan başqa astronomların fikrincə, bu teleskop vasitəsilə aşkar edilən ən vacib hadisədir. Aşkar edilən 7 planet yerdən 39-40 işıq ili məsafədə yerləşir.

"Bu planetlərə reaktiv təyyarə ilə uçası olsaq, bu səyahət 40 milyon ili əhatə edəcək", - deyə Baltimordakı Kosmik Tədqiqatlar İnstitutunun əməkdaşı Nicol Luis qeyd edib.

Bu günə qədər alimlərə "Yerin əkizi" sayılan onlarla planet məlumdur. Ulduzların həyat sərhədləri zonasında yerləşən və ehtimalən həyat üçün yararlı olan yer tipli planetlər "Yerin əkizi" adlandırılır. Bununla yanaşı alimlər bu planetlərdə həyatın olmasını sübut edəcək faktları əldə edə bilməyiblər. Yeni planetlər barədə məqalə Nature jurnalında dərc olunub. "TRAPPİST-1 ulduzundan ən uzaqda olan planetdə istiliyi effektiv saxlayan və daha çox Venera atmosferinə bənzəyən atmosfer olsaydı o zaman bu planet həyat üçün yararlı ola bilərdi", - deyə tədqiqatın müəlliflərindən biri, Cambridge Universitetinin əməkdaşı Amori Trio BBC-ə açıqlamasında bildirib.

Qeyd edək ki, NASA-nın bu kəşfi yerdən başqa planetdə də həyat olduğunu, bəlkə də orada da yaşayışın olduğunun deməyə əsas verir.

*Maraqlıdır, bizim astroloqlar NASA-nın bu iddiaları haqda nə düşünür?*

**Astroloq Firudin Qurbansoy** bunun mümkün olduğunu dedi: "Milyonlarla günəş sistemi var. Əlbəttə, bu mümkündür. Amma bizim ora getmək, onlarla əlaqə yaratmaq üçün texniki imkanlarımız yoxdur. Bizim kosmik raketimiz illərlə ora uça bilməz. İnsan ömrü də buna yetməz. Günəş işığı görmədən yaşayan insan ömrü nə qədər ola bilər ki?! Təsəvvür edin ki, kosmik raketin içində günəş işığı görmürsən, çimə də bilmirsən, nəfəs almaq da olmur. Ancaq süni halda nəfəs almaq olur. Diqqət etmisinizsə, kosmonavtlar düşəndən sonra 2-3 ay bərpa periodu keçiləndən sonra insan içinə çıxırlar. Bu 3-cü kosmik sürətlə getsə belə ora çatması üçün illər lazımdır və buna insan ömrü çatmır. 10 nəfər, aralarında biri rus qadın olmaqla Marsa getmək istəyir. Onlar deyir ki, geri qayıtmayacaqlar və orada ölüb qalacaqlar. Mən deyirəm ki, onlar 15 dəqiqə sonra öləcəklər, nəinki aylarla illərlə yaşasınlar. Çünki orada təzyiq o qədər çoxdur ki, gərək sənin geyimin 1 santimetr qalınlığında alüminiumdan olsun. Bu geyim 1 santimetrdən aşağı olsa o saat sıxıb insanı partladar. Bundan başqa nə yeyib içəcəksən, necə təmizlənəcəksən?! Nəzəri cəhətdən deyirlər ki, getmək olar, bunu etmək olar. Axı əməli cəhətdən bunu etmək olmur".



**Firudin Qurbansoy:** "Yerə bənzər planetlərlə əlaqə saxlamağa texniki imkanlarımız yoxdur"



**Səbuhi Rəhimli:** "2001-ci ildən bu günə kimi 4 dəfə Yerə bənzər planetin tapıldığı bəyan edilib"

**Astroloq yer kürəsinə oxşayan planetlərin olduğunu dedi:** "Yerə bənzər planetlər var. Ancaq onlarla əlaqə saxlamağa texniki imkanlarımız yoxdur. Bəlkə də o planetlərin bizimlə əlaqə saxlamağa imkanları var. Uçaq boşqablar şəklində gəlib gedirlər. Amma bizdə hələ ki, bu imkanlar yoxdur".

**Astroloq Səbuhi Rəhimli** isə bildirdi ki, 2001-ci ildən bu günə kimi 4 dəfə yerə bənzər planetin tapıldığı bəyan edilib: "Təbii ki, insan düşüncəsində belə bir qənaət var ki, bizim planet kainatda varlıq mövcud olan yeganə kosmik obyekt deyil. Qədim bilgilərdə, monoteist dinlərdəki müqəddəs mətnlərdə buna ehkam edilən çoxsaylı məlumatlar var. Son yüzillikdə məxfi saxlanılmasına baxmayaraq, yadplanetlilərin gəlişini təsdiqləyən faktlar da az deyil. Üstəlik, Həzrəti Peyğəmbərimiz (s) haqqında söylənilən "18 min aləmin Mustafası" fikri də deyilənləri təsdiq edir. Çünki canlı və şüurlu varlıq olmayan bir aləmin peyğəmbərə ehtiyacı ola bilməz. Bütün bunlara söykənərək kainatda Yerdən başqa da canlı varlıqlar yaşayan planetlərin olmasına əmin olduğumu söyləyirəm. Amma son günlər yayılan məlumatın doğrudan da NASA tərəfindən yayılıb-yayılmamasını bilmirəm. Çünki zaman-zaman bu təşkilatın adından çoxsaylı dezinformasiyalar yayılmaqdadır. Hətta bunu NASA bildirsə belə, yaxın onilliklərdə, bəlkə də yüzilliklərdə mümkün olmayacaq. Çünki bizim Günəş sistemində mövcud olan Marsın özünü tədqiq etmək kifayət qədər çətindir. Bu sistemdən kənarda həyat olan hansısa planetin quruluşuna və durumuna aydınlıq gətirmək isə indilik ağlabatan görünmür. 2001-ci ildən bu yana 4 dəfə Yerə bənzər planetin tapıldığını bəyan ediblər. Lakin bu, xəbər çərçivəsindən qırağa çıxmayıb. Güman edək ki, bu dəfə elə olmayacaq".

❑ **Günel MANAFLI**

# "15 min manata onu xilas etmək olar"

## Səhv vurulan iynə Türkanəni yeriməkdən məhrum edib

**Zeyniyevlər ailəsinin 3 yaşlı qızı i Türkanə illər öncə qızılca xəstəliyi keçirir. Bədən temperaturu getdikcə yüksəldiyi üçün evə təcili yardım çağırılır və həmin gündən etibarən ailənin üzü gülmür.**

Belə ki, qızdırması yüksək olduğu üçün həkimlər 3 yaşlı qıza iynə vurublar ki, temperaturu aşağı düşsün. Səhv vurulan iynə 3 yaşlı Türkanəni yeriməkdən məhrum edir. Onun zamanla bütün bədən funksiyaları dayanır. Ayaqları tutulur, əlləri işləmir, yatağa məhkum olur.

Səhv vurulan iynə özünü gec büruzə verdiyi üçün, ailə heç nəyi sübuta yetirə bilmir. Müxtəlif həkimlərə müraciət edilir, heç biri düzgün diaqnoz verə bilmir. Sonda Türkiyədəki həkimlərin sayəsində məlum olur ki, Türkanə distoniya xəstəliyinə tutulub. Xəstəliyin yaranma səbəbi isə, ona vurulan səhv iynədir.

Qızının müalicəsi üçün uyğun xəstəxanalar və mərkəzlər Bakıda olduğuna görə, Naxçıvanda müəllim işləyən Məsud Zeyniyev qızına görə işdən ayrılıb, Bakıya gəlməli olur. Çarəsiz ata bütün gücünü sərf edib, qızını bir neçə ölkəyə də aparıb. Orada həkimlər deyiblər ki, 1 il müddətində müalicə olunmalıdır. Əgər bu müalicə düzgün aparılarsa, qızlarını yenidən ayağa qaldırmaq mümkün olacaq.



Türkanənin artıq 22 yaşı var. Bu illər ərzində ailə getdikcə daha da kasıblaşıb. Çünki müalicə məsrəflərini qarşılamaq Zeyniyevlər üçün asan deyil. Hazırda ailə Sumqayıt şəhəri, 4-cü mikrorayon, 29/20 A, mənzil 36-da kirayəçi olaraq yaşayırlar.

M.Zeyniyev deyir ki, qızının həyatını 10-15 min manata xilas etmək olar: "Ümid klinikasında yunan həkim var. O dedi ki, Türkanə bir il ərzində mərhələli formada müalicə edilməlidir. Bunun üçün də 10-15 min manat arasında pul lazımdır. Mənim isə ona gücüm çatmır. Burada kirayə qalırıq. Hər gün qızımı müalicəvi masaj üçün mərkəzə aparıram. Hər masaja görə də, 40 manat ödəyirəm. Saat 3-4 dən sonra qızımı gətirib evə qoyuram. Bu saatdan sonra da iş tapmaq çətin olur. Fəhləlik edirəm, iş olanda 3-5 manat çörək pulu çıxır. Masaja ara vermək olmaz. Ara verəndə ağrıları olur, gecələr yata bilmir. Elə olur ki, səhərə qədər başının üstündə dayanırıq. Sadəcə masajla iş bitmir. Həkim Yaponiya istehsalı olan bir dərman yazıb. 350 manat qiyməti var. Onu Azərbaycanda tapmaq olmur. Rusiyada olan dostlarıma da demişəm, onlar da orada axtarırlar. Həmin dərman qızımın beyninin normala qayıtması üçün vacibdir".

22 yaşlı Türkanəni xilas etmək üçün 15 min manat pul lazımdır. Bu məbləği isə dövlətimiz çox rahat şəkildə ödəyə bilər. İş adamları üçün də bu məbləğ elə də böyük deyil. Bir insan həyatını xilas etmək üçün ödəniləcək heç bir məbləğ çox sayıla bilməz.

**Ailəyə maddi yardım etmək istəyənlər üçün bank hesab nömrəsi:**

AZ66I-BAZ33801019445847902213 MƏSUD ZEYNİYEV İNFİL OĞLU

Azərbaycan Beynəlxalq Bankı Sumqayıt filialı

❑ **Məhəmməd TÜRKMƏN**
**Fotolar müəllifindir**

# Fevral küləklə bitir

**Artıq ölkəmizdə yazın ılıq nəfəsi duyulmaqdadır Yaz fəsli əslində ölkəmizə martın 20-də səhər saatlarında 10:28:07-də qədəm qoyacağına baxmayaraq, havalar isti keçir. Bir həftə öncəyə qədər qarlı, çovğunlu, əsl qış havası yaşanırdı. Ancaq indi birdən birə havalar isindi və ölkədə 12-17 dərəcəyədək istilik müşahidə edilir.**

*Maraqlıdır, qarlı, çovğunlu havanın həmən ardınca bu cür isti havalar anomal hal sayılırmı? İsti havalar hələ davam edəcəkmi yoxsa yenə qar, soyuq bizi gözləyir?*

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin Hidrometeoroloji Proqnozlar Bürosunun baş hidrometeoroloqu Asif Verdiyev** hazırda müşahidə edilən hava şəraitinin fevral ayı üçün xarakterik olduğunu dedi: "Hal-hazırda fevral ayı üçün ölkə ərazisində küləkli hava şəraiti müşahidə olunur. Tez-tez şimal qərb küləyi cənub qərb küləyi ilə əvəz olunur. Yəni bu cür küləkli hava şəraiti yaxın 2-3 gün ərzində ölkə ərazisində davam edəcək. Baxmayaraq ki, havanın temperaturunda yaxın 2 gün ərzində yüksəlmə müşahidə olunacaq. Ancaq dəyişkən küləkli hava şəraiti davam edəcək. Qeyd etmək istəyirəm ki, bu cür küləkli hava şəraiti əvvəlki illərdə də müşahidə olunub. Hazırda müşahidə olunan temperaturu biz götürsək Bakı və Abşeron yarımadasında ötən gün 8-13 dərəcə arasında isti qeydə alınıb. Əvvəlki illərə baxsaq, görərik ki, Bakı, Abşeron yarımadasında bundan da isti temperatur müşahidə olunub. Hazırda müşahidə olunan hava şəraiti anomal sayılmır və fevral ayı üçün xarakterikdir".

❑ **Günel MANAFLI**

Yeni MÜSAVAT

Son səhifə

N 43 (6657) 25 fevral 2017



## 20 il həbsdə yatandan sonra günahsız olduğu üzə çıxdı

**Qətl hadisəsində ittiham olunan italyanın 20 il türmədə yatandan sonra günahsız olduğu üzə çıxıb. Bu barədə "La Stampa" nəşri xəbər verir. Xəbərdə qeyd olunur ki, söhbət 55 yaşlı Fraqanyano şəhər sakini Ancelo Massarodan gedir. Daha öncə Katanzaro məhkəməsi onun suçlu olması barədə qərar çıxarmışdı. O, Lorenso Fersurellanın ölümündə ittiham olunaraq, 24 illiyinə azadlıqdan məhrum olunmuşdu. İstintaq materiallarından aydın olur ki, bu şəxsin qətldə ittiham olunmasına səbəb üçüncü şəxslərin verdiyi məlumatlar və yanlış detallar olub. İstintaq sübut edib ki, eşidilənlər heç də həqiqəti əks etdirmir. Bundan başqa, ittiham olunan şəxsin vəkili də onun hadisə baş verən zaman başqa yerdə olduğunu sübut etməyi bacarıb. Son nəticədə məhz Ancelonun 22 il həbsinə qərar verən məhkəmə bu dəfə onun suçsuz olduğunu sübut edib və onun azadlığa çıxmasına qərar verib. Hazırda isə eks məhbus qeyri-qanuni azadlıqdan məhrum edildiyinə görə, Ədliyyə Nazirliyindən kompensasiya tələb edir.**

# Kimin xalı çoxdursa, o, daha çox yaşayır

**İtaliyanın "La Repubblica" qəzetində verilən xəbərə görə, London Kral Universitetinin bir qrup alimi, Cindy Crawford, Eva Mendes və Marilyn Monroe kimi qadınların gözəllik simvolu olan xalları əsas götürən araşdırma aparıb. Araşdırmada yaşları 18 və 79 arasında dəyişən və birbirinə bənzəməyən 1200 qadın iştirak edib.**

Araşdırmanın nəticəsinə görə, yüzdən çox xalı olan insanların əzələləri daha gərgin, ürək və gözləri daha sağlam olur.

Bu insanlar həmyaşıdları ilə müqayisədə ən az 7 yaş gənc görünür. Xalı çox olan insanların sümükləri də normaldan güclü olur.



Bir çox insanın bədənində təxminən 30-40 xal olur, amma bəzilərində bu say 600-ə qədər yüksəlir.

# Reanimasiyada "göbək atıb" rəqs etdilər, işdən qovuldular

**Antalyadakı özəl bir xəstəxananın işçiləri reanimasiyada rəqs ediblər, yallı gediblər. Videogörüntülərdə yer alan tibb bacısı və sanitarlar isə bu "əyləncəli" anları videonun yaddaşına köçürüblər. Xəstəxana rəhbərliyi hadisənin ardınca personalışdən çıxarıb. Sözügedən olay 4 il əvvəl baş versə də, videogörüntülər 4 il sonra ortaya çıxıb. Görüntülərdə yer alan personalın hadisədən qısa müddət sonra işdən çıxarıldığı üzə çıxıb.**

23 dekabr 2013-cü ildə baş verən bu hadisə zamanı tibbi personal bir-biri ilə zarafatlaşaraq, bir-birini həvəsləndirərək, rəqs edirlər. Hətta onlar öz aralarında "buna bax, bilinmir xəstəyə baxır, ya oyun oynayır" deyərək, canı ilə əlləşən xəstələrə qarşı vicdansız münasibət göstərirlər. Onların qəhqəhə çəkərək gülməsi, eyni zamanda bu hadisəni telefonla çəkməsi isə xəstəxana rəhbərliyinə hansısa formada çatdırılıb. Xəstəxananın sahibi Hüseyn Sarı isə mediaya açıqlamasında deyib ki, hadisədən qısa müddət sonra bu görüntülər ona çatdırılıb və həmin işçiləri dərhal işdən çıxarıb.





## Çox yatanlar tez ölür, yoxsa az yatanlar?

**Uorika universitetində aparılan araşdırmaya əsasən, 8 saatdan çox yatan yetkin şəxslərin daha erkən ölmək riskləri daha çoxdur.**

9 və daha çox saat yatmağı sevənlərin ölmək riski 7-8 saat yatanlara nisbətən 30% daha çoxdur. Bunu 10 il ərzində milyondan çox insanın yatmaq davranışını izləyən araşdırma nəticəsində Uorika universitetinin elmi araşdırma işçiləri deyir.

6 saatdan az yatanlar da risk qrupuna düşürlər - onların da normal yatanlarla nisbətdə ölmə riski 12% daha çoxdur. Çox yatmağı sevənlər tez-tez diabetə və depressiyaya tutulurlar, həmçinin ürək-damar sistemlərində problemlər müşahidə olunur. Bu arada az yatmaq da ölümü tezləşdirən xəstəliklərə gətirib çıxarır.

Uorika universitetinin professoru Franko Kappuççi-onun nəticəsinə görə, optimal yatmaq müddəti 7-8 saat olmalıdır. Həmçinin Massaçusets universitetinin professoru Dr. Ceykobsun araşdırmasında da ən uyğun yatmaq müddəti 7 saat kimi göstərilir.




**QOÇ** - Yeni əlaqələr yaratmaq, perspektivli sövdələşmələrə başlamaq gün ərzində üzərinizə düşən başlıca vəzifə olmalıdır. İşlərin çoxluğundan xoflanmayın. Əsası odur ki, nəticə xeyrinizədir.

**BUĞA** - Ulduzların düzümünə əsasən bu gündən etibarən şəxsi işlərinizdə müsbət dönüş yaranmalıdır. Bunun üçün müttəfiqlərinizlə daha sıx əlaqə saxlamalı, yalan vədlər verməməlisiniz.

**ƏKİZLƏR** - Günün ümumi mənzərəsi qənaətbəxş olsa da, insanlarla münasibətdə bir qədər ehtiyatlı tərpənməlisiniz. Çünki gün ərzində ciddi münaqişələrlə üzləşmə ehtimalınız var. Pul da gözlənilir.

**XƏRÇƏNG** - Rastlaşdığınız situasiyaların mürəkkəbliyindən qorxmayın. Ən azı ona görə ki, atdığınız hər bir addım ulduzlar tərəfindən dəstəklənir. Sevdiyiniz şəxslə münasibətləri qoruyun.

**ŞİR** - İqlimin necəliyinə baxmayaraq, evdə oturmağa lüzum yoxdur. Çünki sizi müvəffəqiyyət gözləyir. Sevindirici xəbərlər, şəxsi işlərinizdə müsbət dönüş də mümkündür.

**QIZ** - Xoş bir gün yaşayacağınızdan xəbər verən ulduzlar maraqlı insanlarla rastlaşacağınızı bildirir. Dəvətlərdən boyun qaçırmayın. İmkan tapıb müqəddəs ziyarətgahlara da baş çəkin.

**TƏRƏZİ** - Ümumi kosmik mənzərə pozitiv olduğundan gün ərzində uğurlarınız çox olacaq. Rastlaşdığınız hadisələrin müsbət çalar daşıması və maddi problemlərinizin tənzimlənməsi sizi sevindirəcək.

**ƏQRƏB** - Fəaliyyətlə bağlı vəziyyətiniz qənaətbəxş olacaq. Şəxsi büdcənizdə də uğurlarınız mümkündür. Sizə ümid və sevgi bəsləyənlərin inamından sui-istifadə etməyin. Təşəbbüskar olun.

**OXATAN** - Şad xəbərlər yolunuzu gözləyir. Hətta yeni və maraqlı təkliflər almaq ehtimalınız da var. Nahar ərəfəsində qarşınıza çıxan şanslardan istifadə edin ki, gələcək günləriniz xoş olsun.

**OĞLAQ** - Saat 12-yə qədər istirahət edib sonrakı müddətdə isə aktiv fəaliyyətə keçin. Aldığınız təkliflərə ciddi yanaşın. Qərar çıxararkən qətiyyətli olun. Reallıqdan kənara çıxmayın.

**SUTÖKƏN** - Bir qədər qalmaqallı gündür. Təxminən saat 16-ya qədər proseslər mənfi müstəvidə cərəyan edə bilər. Odur ki, dua və ziyarətlərinizi əsirgəməyin. Özünüzü təmkinli aparın, səhhətinizə fikir verin.

**BALIQLAR** - Təxminən saat 15-ə qədər hər bir məsələdə neytral mövqe seçməlisiniz. Çünki göstərilən müddətdə orqanizminizdə passivlik hökm sürəcək. Sonrakı ərəfəni ailə-sevgi məsələlərinə həsr edin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Ana südü ilə qidalanan uşaq daha zəkalı olur



**Ana südü ilə qidalanan uşaqlarla bağlı maraqlı araşdırma aparılıb. Milliyet qəzetinin xəbərinə görə, bu məqsədlə 1300 qadın və uşağın illər boyu davranış və inkişaf sxemi araşdırılıb. Uşaqlar 3 yaşına çatanda onlara dil testi keçirilib. Araşdırmaçılar müəyyənləşdirib ki, körpə ikən 6 ay boyunca əmizdirilən uşaqlar heç əmizdirilməyənlərdən 3 bal daha yüksək nəticə göstərib. 7 yaşına çatanda uşaqlar İQ testindən də keçiriliblər. 1 il boyunca əmizdirilən uşaqlar əmizdirilməyənlərlə müqayisədə 4 bal daha yüksək göstərici əldə edib. Araşdırmaçılar bildirib ki, əgər körpələrdən biri digərindən 1 ay daha artıq ana südü ilə qidalanıbsa, bu, onun zəka göstəricilərinə 1/3 bal təsir edir.**

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100